

## Hikmət Hacıyev İran səfiri ilə GÖRÜŞDÜ

*Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev İranın Azərbaycandakı səfiri Seyid Abbas Musəvi ilə görüşüb.*

*Səh.2*


# UNİKAL

№49 (2134) 30 dekabr 2022-ci il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.az

unikal-1@mail.ru




# Anar Kərimov üçün həbs anonsu

Keçmiş nazir iki ildə korrupsiya və rüşvət baxımından sələfi Əbülfəs Qarayevi belə vurub keçibmiş - şok faktlar!

*Məlum olduğu kimi, ötən həftə - dekabrın 22-də mədəniyyət naziri Anar Kərimov tutduğu vəzifədən azad olundu. Keçən sayımızda da yazdığımız kimi, bu qərar sürpriz deyildi. Belə ki, noyabrın 1-də Dövlət Təhlükəsizliyi Xidməti (DTX) Mədəniyyət Nazirliyində əməliyyat keçirmiş və qurumda ciddi korrupsiya halları aşkarlanmışdı. Xatırladaq ki, əməliyyat zamanı mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev, nazirliyin Təchizat və Əmlak Şöbəsinin müdiri İlkin Nəsibov, Protokol Şöbəsinin rəisi Kamil Rzayev və digər vəzifəli...*

Səh.3




Səh.9

# Şuşa-Xankəndi yolundakı etiraz ermәniləri küncə sıxıb

## "Məmurların qapısı vətəndaşların üzünə açıq



*Milli Məclisin Regional məsələlər komitəsinin sədri, deputat Siyavuş Novruzov "Unikal"a müsahibə verib. O, Naxçıvan Muxtar Respublikasına yeni rəhbərin təyin olunmasından, qiymətlərin bahalaşmasından, növbəti ildə hansı islahatların ola biləcəyindən, Zəngəzur dəhlizinin əhəmiyyətindən və başqa məsələlərdən danışıb.*

Səh.4

## 1 milyon manatlıq yeyintidə Əbülfəs Qarayev izi...



*Artıq uzun illərin təcrübəsi göstərir ki, Azərbaycanda iri ranqlı məmurlar öz ətraflarında müxtəlif çəkili "qurbanlıqlar" saxlayırlar. Vaxtı gələndə, özləri də az-çox çirkaba bulaşmış və "yağlanmış" həmin bu "qurbanlıq"lar asanlıqla güdaza verilir, həmin iri ranqlılar isə obrazlı desək, "süddən çıxan ağ qaşıq" kimi, çəkilb durur bir kənarda.*

Səh.8

## "Naxçıvanda Ermənistana qarşı mitinqlər keçirilməlidir"



Ermənistanın baş naziri Nikol Paşinyan Nazirlər Kabinetinin iclasında deyib ki, Qarabağda qanunsuz məskunlaşan erməni əhalisi lazımi malların qıtlığı ilə üzləşib. O, bütün bunları nəzərə alaraq, təsdiqlənmiş humanitar böhranın idarə olunmasında "Dağlıq Qarabağ xalqına" dəstək olmaq üçün baş nazirin müavini...

Səh.2

# “Təyyarə biletimizi aldılar və Naxçıvana getdik” - Talıbovlar Damlaya nə qədər pul verib?



***Naxçıvandan gələn xəbərlər, Talıbovların malik olduğu səltənətin ayrı-ayrı elementləri barədə yazılar, fotolar və videomateriallardan görünən odur ki, “cənab sədr” və onun övladlarının bu illər ərzində topladığı sərvətin miqdarı milyardlarla ölçülür.***

Yayılan məlumatlara görə, Vasif Talıbovun övladları müğənnilərin də bir çoxuna bahalı hədiyyələr verib, böyük ölçüdə “qonorarlar” ayırıb.

Onların sırasında Aygün Kazımova, Röya Ayxan, Damla, Nəfəs, Vəfa Şərifova və digərlərinin adı çəkilir.

Mövzu ilə bağlı Yenisabah.az-a danışan müğənni Damlanın prodüseri Şamil İbrahimov yayılan xəbərlərin tamamilə yalan olduğunu bildirib.

Onun sözlərinə görə, müğənni Naxçıvana konsert proqramı üçün yollanıb və çıxışından sonra Bakıya geri dönüb: “Bu ilk dəfə deyil ki, bizim adımız lazımsız yerlərdə hallanır. Həmişə belə olub. Harada bir olay varsa, biz ordayıq, mütləq adımız çəkilir. Yayılan məlumatlar isə əsassızdır. Bizi Naxçıvana təşkilatçı çağırmışdı, biz heç bilməmişik ki, “Cahan Holding” kimindir, konsert nə konsertidir. Zəng vurub təşkilatçı bizi dəvət etdi, bildirdi ki, Naxçıvanda ”Saat Meydanı”nda konsert üçün əlaqə saxlayıb. Konsert barədə məlumat verdi, təyyarə biletimizi aldı və getdik. Bir gecə Naxçıvanda qalmışıq, konsertdə oxuyub, qonorarımızı alıb geri gəlmişik. Nə hədiyyə, nə villalar? Damla xanıma belə bir hədiyyə verən olmayıb. Biz heç real həyatda Talıbovları görməmişik, nə də telefonla danışamamışıq, tanımırıq, yalnız Naxçıvandan olan təşkilatçı ilə danışmışıq. Sözügedən konsert proqramı bu ilin iyun ayında olub, oxuyub geri dönmüşük.

Müğənni dəvət alır, qonorarını alıb çıxış edir, təşkilatçı zəng edib, prodüseri olaraq mən danışmışam, mən haradan bilim ki, konserti maliyyələşdirən kimdir, şirkət kimə məxsusdur, durub araşdırası deyiləm ki, kim nəçidir?! Bu mövzularda yalan danışmaq olmaz. Orada nəsə olubsa, kiməsə yalan satmaram, mən olanı deyirəm, hara qədər desələr də sözümün arxasında durmuşam”.

Prodüser həmin konsertə görə müğənninin aldığı qonorarın məbləğini açıqlamayıb.

# Fatimədən Xuramana sərt cavab

***Rəqqasə Fatimə Fətəliyeva Xuraman Şuşalının ”Məni nə rəqqasə, nə də şair ilə müqayisə edin” sözlərinə cavab verib.***

Sənətçi ”Özəl” proqramında ifaçının dediyi sərt sözlərə əsəbiləşdiyini etiraf edib: ”Peşəkarlardan dərs alıb, müğənnisənsə, müğənni kimi fəaliyyət göstər. Xına aparırsansa, bu işin içindəsən demək. Biz bu biznesin içindəyik və hərənin öz peşəsi var. Dediyi yaxşı çıxmadı. Bir damcı xınadan nə qədər insan evinə ruzi aparır. Allah Xuramana ruzi verib. Vaxtilə açıq-saçıq geyinən müğənnilərdən idi. Allah ürəyinə sevgi verdi, cəsarətli olub hicab bağladı. Bağlanandan sonra Allah ona ruzi verib. Xına biznesdir, adət-ənənədir.



Sən müğənnisənsə, mən də rəqqasəyəm”.

Qeyd edək ki, Xuraman ”İstəmirəm məni xına aparıcıları ilə müqayisə etsinlər. Məqsədim var, müəllimlərimin əməyini tapdalaya bilmərəm. Tək xına aparıcısı qalsam, haqlarını itirmiş olaram. Məni nə rəqqasə, nə şair ilə bir qoymayın. Xınayaxdıya yarım saatlıq gedirəm” sözlərini söyləmişdi.



# Natavan onu tənqid edən şəxslə olan yazışmalarını yaydı

***Bloger Elçin Lənbəranski müğənni Natavan Həbibinin Müdafiə Nazirliyi tərəfindən təltif olunmasını tənqid edib.***

Axşam.az xəbər verir ki, ifaçı blogerin onun barəsində yazdıqlarına cavab olaraq aralarında keçən yazışmaları ifşa edib. Məlum olub ki, Elçin bir neçə dəfə yardım üçün Natavana müraciət ünvanlayıb və etdiyi köməkliyə görə ona təşəkkürlərini bildirib.

”Vallah nə deyim Elçin, etdiklərimizi saymayaq. Mənim üçün əsas odur ki, yaradan hər şeyi bilir və görür” deyə, Natavan paylaşımında yazıb.

# Aysel Teymurzada qayıdır?

***”Eurovision” təmsilçilərimizdən olan Aysel Adıgözəlzadə paylaşımı ilə diqqət çəkib.***



Müğənni yeni fotosunu yayımlayıb. O bildirib ki, yaxın günlərdə yeni layihə təqdim edəcək.

”Nəsə yeni gəlir” deyə, Aysel paylaşımına yazıb. İzləyicilər isə ona yeni mahnı təqdim edəcəyi ilə bağlı suallar ünvanlayıb. Müğənni Murad Arif isə ”Nəhayət, yeni musiqi videosu” şərhini yazıb.

Qeyd edək ki, Aysel Xalq artisti Murad Adıgözəlzadə ilə ailə qurduqdan sonra sənətdən gedib.

# Xalq artistləri uşaqlar üçün bir araya gəldilər

***Heydər Əliyev Fondunun ənənəvi olaraq azyaşlılar üçün təşkil etdiyi Yeni il şənliyi keçirilib.***

Xalq artisti Aygün Kazımova gecədən fotoları instaqram hesabında paylaşıb.

Şəkillərdə Xalq artistləri Zülfiyyə Xanbabayeva ilə Faiq Ağayev də yer alıb.





# Sahibə Qafarovanın təqdimatı ilə yeni auditorun namizədliyi irəli sürülü

***Dekabrın 29-da Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclası keçirilib. İclasda Azərbaycan Respublikası Hesablama Palatasının auditorunun təyin edilməsi haqqında məsələyə baxılıb.***

Milli Məclisdən "Unikal"a verilən məlumata görə, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili bildirib ki, Milli Məclisin sədri Sahibə Qafarovanın təqdimatı ilə Vüqar Emin oğlu İbrahimovun Azərbaycan Respublikası Hesablama Palatasının auditoru vəzifəsinə namizədliyi irəli sürülüb.

Tahir Mirkişili son illərdə Milli Məclis ilə Hesablama Palatası arasında peşəkar əlaqələrin inkişaf etdiyini qeyd edib, həm dövlət büdcəsi layihələrində, həm onların icrasında, həmçinin qanun layihələrinə rəy verilməsi sahəsində parlamentlə palata arasında səmərəli əlaqələrin qurulduğunu vurğulayıb. Hesablama Palatasının fəaliyyətində mühüm keyfiyyət dəyişiklikləri baş verdiyini deyən komitə sədri palatanın qarşısında duran çağırışlar, bu çağırışlara cavab vermək üçün görüləcək işlərdən danışıb.

Komitə sədri qeyd edib ki, 2007-ci ildən Hesablama Palatasında şöbə müdiri və aparat rəhbəri vəzifələrində çalışan Vüqar İbrahimov palatanın auditoru kimi də yeni nailiyyətlərin əldə edilməsinə öz töhfəsini verəcək.

İclasda çıxış edən komitə sədrinin müavini Əli Məsimli, komitə üzvləri Mahir Abbaszadə, Elnur Allahverdiyev, Məzahir Əfəndiyev, Rüfət Quliyev, İqbal Məmmədov və Milli Məclis Aparatının İqtisadi qanunvericilik şöbəsinin müdir müavini Rövşən Muradov Vüqar Emin oğlu İbrahimovun Hesablama Palatasının auditoru vəzifəsinə namizədliyi ilə bağlı fikirlərini bölüşüblər.

Deputatlar Vüqar Emin oğlu İbrahimovun Hesablama Palatasının auditoru vəzifəsinə namizədliyini təqdirlə qarşılayıblar, ona Palatada bundan sonra auditor kimi fəaliyyətində uğurlar arzulayıblar, təklif və tövsiyələrini diqqətə çatdırıblar.

İclasda Vüqar İbrahimov deputatlara namizədliyini dəstəklədikləri üçün təşəkkür edib və ona göstərilən etimadı doğrultmaq üçün bütün imkanlarını səfərbər edəcəyini bildirib.

Fikir mübadiləsinin yekununda İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi Vüqar İbrahimovun Hesablama Palatasının auditoru vəzifəsinə təyin olunması barədə təqdimatı məqsədəuyğun hesab edib və məsələ baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə olunub.

# Əvəz Zeynallının həbs müddəti uzadıldı

***Binəqədi Rayon Məhkəməsində tanınmış jurnalist Əvəz Zeynallı barəsində seçilmiş həbs qətimkan tədbiri müddətinin uzadılması ilə bağlı vəsatətə baxılıb.***

Bu barədə "Unikal"a onun vəkili Rəşad Əliyev məlumat verib.

O bildirib ki, Əvəz Zeynallının həbs müddəti 3 ay uzadılıb.

# 1 milyon manatlıq yeyintidə Əbülfəs Qarayev izi...

## Doğrudanmı, bu qədər böyük məbləğdə pulu bir direktor keçmiş nazirdən xəbərsiz mənimsəyib?

***Artıq uzun illərin təcrübəsi göstərir ki, Azərbaycanda iri ranqlı məmurlar öz ətraflarında müxtəlif çəkili "qurbanlıqlar" saxlayırlar. Vaxtı gələndə, özləri də az-çox çirkaba bulaşmış və "yağlanmış" həmin bu "qurbanlıq"lar asanlıqla güdaza verilir, həmin iri ranqlılar isə obrazlı desək, "süddən çıxan ağ qaşıq" kimi, çəkilb durur bir kənarda. Bunu təsdiq edən saysız-hesabsız nümunələr göstərmək olar. Həmin nümunələrdən birinə sabiq mədəniyyət naziri Əbülfəs Qarayevin timsalında göz ataq.***



Bir müddət əvvəl mediada məlumat yayıldı ki, Hüseynqulu Sarabski adına 7 saylı musiqi məktəbinin külli miqdarda mənimsəməyə görə həbsdə olan sabiq direktoru Mehriban Rüstəmova ilə bağlı hökmdən verilmiş apellyasiya şikayətinə baxılıb. Bakı Apellyasiya Məhkəməsində 1 ilə yaxın müddətdə yenidən araşdırılan iş üzrə qüvvədə olan hökm qismən dəyişdirilib. Hakim Mirzəli Abbasovun sədrlik etdiyi hakimlər heyəti təqsirləndirilən Mehriban Rüstəmova barəsində Cinayət Məcəlləsinin 313 (vəzifə saxtakarlığı) maddəsi ilə verilmiş ittihamı ləğv edib.

Yekun qərara əsasən, ittiham olunan sabiq direktorun cəzası 3 ay azaldılaraq, 10 il 3 aya endirilib.Hökmün qalan hissələri dəyişdirilmədən saxlanılıb.

Bəs bəhs olunan həbsin motivi nədir?

Məsələ burasındadır ki, 2020-ci ildə Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin nəzdində H.Sarabski adına 7 nömrəli Uşaq Musiqi Məktəbinin direktoru Mehriban Rüstəmovanın məktəbdə işləyən müəllimlərin əmək haqlarını mənimsəməsi barədə daxil olmuş məlumat əsasında Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində araşdırma başlanılıb.

İtintaq-əməliyyat tədbirləri nəticəsində Mehriban Rüstəmovanın vəzifə səlahiyyətlərindən sui-istifadə edərək məktəbdə çalışan ayrı-ayrı müəllimlərə məxsus əməkhaqqı kartlarını qanunsuz ələ keçirib həmin kartlara köçürülmüş pul vəsaitlərini bankomatdan şəxsən çıxarmaqla, habelə müəllimlərin əməkhaqqı kartlarına köçürülmüş aylıq əməkhaqqının əhəmiyyətli hissəsini tələb edərək küllü miqdarda (910 min manat) pul vəsaitini mənimsəməsinə əsaslı şübhələr müəyyən edilib. M. Rüstəmovanın xidməti otağında, ona məxsus Nəsimi rayonunda yerləşən yaşayış evində və avtomobilində keçirilmiş axtarış nəticəsində rəhbərlik etdiyi musiqi məktəbinin müəllimlərinin adlarına olan 40 ədəd plastik kart, müxtəlif ölkələrin valyutalarında saxlanılan 40 min manata yaxın pul vəsaiti, musiqi məktəbinin şagirdlərinin adına olan 36 ədəd şəhadətnamə, məktəbin tarifləşmə və tabel cədvəlləri, əmr kitabı, 1 ədəd "notebook" və iş üçün əhəmiyyət kəsb edən digər sənəd və əşyalar aşkar edilərək götürülüb.

İstintaq zamanı M.Rüstəmovanın müəllimlərin adına olan 40 ədəd əmək haqqına dair plastik kartları özündə saxlayaraq həmin kartlara köçürülmüş pul vəsaitlərini bankomat vasitəsilə ələ keçirərərək mənimsəməsi özünün etirafı, eləcə də iş üzrə toplanmış digər sübutlarla təsdiqini tapıb.

Mehriban Rüstəmovanın məktəbin müəllimlərindən qanunsuz yollarla topladığı pul vəsaitinin bir qisminin qabaqcadan əldə edilmiş razılaşmaya uyğun olaraq Bakı şəhər Mədəniyyət Baş İdarəsinin əməkdaşına verilməsi, digər qisminin isə özü tərəfindən mənimsənilməsinə əsaslı şübhələr müəyyən edilib.

Toplanmış sübutlar əsasında Mehriban Rüstəmovaya Cinayət Məcəlləsinin 179.4(mənimsəmə və israfetmə, xeyli miqdarda ziyan vurmaqla törədildikdə) 308 (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 313 (vəzifə saxtakarlığı) maddələri ilə ittiham verilib.

Bakı Ağır Cinayətlər Məhkəməsində araşdırılan iş üzrə Mehriban Rüstəmova verilmiş ittihamlarla təqsirli bilinərək 10 il 6 ay azadlıqdan məhrum edilib.

Lakin bəzi suallar hələ də öz cavabını gözləyir. Məsələn, məlum deyil ki, bir musiqi məktəbinin direktoru tabe olduğu nazirliyin yüksək vəzifəli şəxslərindən, ən əsası o vaxtkı nazirdən - Əbülfəs Qarayevdən xəbərsiz 1 milyon manat kimi böyük məbləği necə mənimsəyə bilərdi? Axı konkret faktlarla məlumdur ki, Qrayevin zamanında adıçəkilən nazirlikdə ondan xəbərsiz quş da uça bilməzdi!

Başqa bir sual - M.Rüstəmova hələ vəzifədə ikən Hüseynqulu Sarabski adına 7 saylı musiqi məktəbində mənimsəmələrə yol verildiyi, nöqsanların baş alıb getdiyi yönündə iddialar dolşırdı. Həmin iddiaların bir qismi ictimailəşmişdi də... Belədə Əbülfəs Qarayev niyə tədbir görməmişdi? Ondan ötrümü ki, Mədəniyyət Nazirliyində, onun strukturlarında baş verən istənilən maliyyə hoqqasından sabiq nazirin öz payı vardı?! Biz bu həqiqəti nazirlikdə aparılan antikorrupsiya əməliyyatı zamanı aşkarlanan faktlardan aydın görməkdimi?

Və nəhayət: hər şey gün kimi aydın şəkildə ortada ikən eks-nazir cinayət məsuliyyətindən necə kənarda qaldı? Doğrudanmı, onun nazir olduğu dönəmdə baş verən maliyyə cinayətlərində ən azı mənəvi iştirakına hüququ müstəvidə qiymət verilməyəcək?

Qayıdaq yazının əvvəlinə. Bu qədər antikorrupsiya əməliyyatlarına, məmur həbslərinə baxmayaraq yeyinti, rüşvət hallarının hələ də geniş miqyasda davam etdirməsi bir sadə həqiqəti təsdiqləyir - biz bu bəlalardan biryolluq can qurtarmaq istəyiriksə iri ranqlı məmurların əlləri altında "qurbanlıqlar" saxlaması, dara düşdükdə onları irəli verərək öz yaxalarını kənara çəkməsi təcrübəsinə də son qoymalıyıq.

***Toğrul Əliyev***




# Türkiyədə Qarabağdakı ekoterrora son qoyulması tələb olundu

***Türkiyənin Eskişehir şəhərində Rusiya sülhməramlılarının müvəqqəti nəzarətində olan Azərbaycan ərazisində faydalı qazıntı yataqlarının qeyri-qanuni istimarına etiraz əlaməti olaraq aksiya keçirilib.***

Bu barədə "Unikal"a Diasporla İş üzrə Dövlət Komitəsindən bildirilib.

Məlumata görə, Eskişehir Azərbaycanlılar Dərnəyinin gənclər qanadının təşkilatçılığı ilə Ulus Anıtı meydanında baş tutan etiraz aksiyasında Azərbaycan və Türkiyənin dövlət bayraqları dalğalandırılıb, "Qarabağ Azərbaycandır!", "Azərbaycan oyaqdır, sərvətinə dayaqdır!", "Qarabağdakı ekoloji terrora son qoyulsun!", "Bir millət, iki dövlət" şüarları nümayiş etdirilib.

Sonra Eskişehir Azərbaycanlılar Dərnəyinin gənclər qanadının sədri Zahir Hacızadə aksiya iştirakçılarının bəyanatını oxuyub.

Bəyanatda bildirilib ki, soydaşlarımız Şuşa-Xankəndi yolunda azərbaycanlı ekofəalların, vətəndaş cəmiyyəti nümayəndələrinin və könüllülərin keçirdiyi etiraz aksiyasını dəstəkləyirlər. Ermənistanın Azərbaycanın təbii sərvətlərini qanunsuz olaraq taladığı, ətraf mühiti çirkləndirdiyi, ekosid törətdiyi bir vaxtda Rusiya sülhməramlılarının Azərbaycanın dövlət qurumlarının nümayəndələrindən ibarət monitorinq qrupunun bu bölgəyə daxil olmasına və müşahidə aparmasına imkan verməməsi qəbuledilməz davranış kimi qiymətləndirilib.

Nəzərə çatdırılıb ki, Laçın yolunu azərbaycanlı etirazçılar deyil, Rusiya Federasiyasının sülhməramlıları bağlayıblar. Azərbaycanlı etirazçıların humanitar yardım və təcili yardım maşınlarının yolu keçməsi üçün hər cür şərait yaratdıqlarına diqqət cəlb edilib.

Bəyanat müəllifləri Azərbaycanın qanunlarına və suverenliyinə hörmət edilməsini, Azərbaycanın dövlət qurumlarının nümayəndələrinin ekoloji monitorinq məqsədilə ölkəmizin ərazisində fəaliyyət göstərməsinə heç bir maneə yaradılmamasını, Ermənistanın və erməni separatçılarının ekoloji terroruna son qoyulmasını, Rusiya sülhməramlılarının müvəqqəti nəzarəti altında olan ərazidəki qanunsuz erməni silahlı birləşmələrinin dərhal çıxarılmasını tələb ediblər.

"Bu torpaqlar bizim torpaqlarımızdır, buranın hər daşı bizim üçün qiymətlidir. İllərdir ermənilər bu torpaqlarda ekoloji tarazlığı pozub, meşələr yandırılıb, çayların məcrası dəyişdirilib, milli sərvətlərimiz talan edilib. Hər zaman ekoloji problemləri gündəmə gətirən böyük təşkilatlar, dövlətlər nədənsə Qarabağdakı ekosid əleyhinə heç vaxt çıxış etməyiblər. İndi buna son qoymağın vaxtıdır. Biz Qarabağda qeyri-qanuni mədən hasilatına və ekoloji terrora son qoymağa çağırırıq", - deyə sənəddə vurğulanıb.

# Şuşa-Xankəndi yolundakı etiraz ermənilәri künca sıxıb

## Bu etirazlar bizi Qarabağın beynəlxalq sponsorların dəstəyi ilə klan-mafiya rejiminə çevirdiyi "boz yurisdiksiya zonası"ndan çıxmağa başlayacağı günə yaxınlaşdırır

***Şuşa-Xankəndi yolundakı etiraz aksiyalarının nəticəsi olaraq, erməni separatçıları Azərbaycan ərazisindəki yataqlarda qanunsuz fəaliyyətə ara vermək məcburiyyətində qalıb. Artıq qızıl və mis yataqlarını qanunsuz istismar edən "Base Metals" şirkəti də fəaliyyətini müvəqqəti dayandırdığını bəyan edib.***

Görünən odur ki, Azərbaycan cəmiyyətinin sərt təpkisi, davamlı etirazlara, eləcə də ölkə rəhbərliyinin konkret mövqeyi ilə formalaşan təzyiq öz nəticəsini verib. Siyasi şərhçilər hesab edirlər ki, bu hələ başlanğıcdır, güzəştə getmək olmaz, çünki ermənilər hiyləyə əl atıblar, ekoloji ekspertizanın keçirilməsi üçün beynəlxalq təşkilatlara müraciət ediblər. Bizim tələbimiz isə bu deyil. Belə ki, beynəlxalq ekspertlərin hansı dairələrin təsiri altında olacağı məlumdur. Odur ki, monitorinqi Azərbaycan tərəfi keçirməlidir, hətta monitorinqə şərait yaradılsa belə, yolda hərbçilərimizin nəzarət postu olmalı, daxil olan və çıxan nəqliyyat vasitələrini yoxlamalıdır.



Məsələ ilə bağlı "Unikal"a açıqlama verən Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri, deputat Səməd Seyidov bildirib ki, vətəndaş cəmiyyətinin fikirlərinə və etirazına hörmətlə yanaşmaq lazımdır: "Bu, onların hüququdur. Onlar da öz hüquqlarından istifadə edirlər. Heç kim aksiyaçıların etirazının qarşısını ala bilməz. Bu, cəmiyyətin narahatlığını və xalqın etirazını göstərən aksiyadır. Hesab edirəm ki, aksiya artıq öz nəticələrinə çatmaqdadır. Bütün dünya başa düşür ki, müstəqil dövlətin suveren ərazisində hər hansı qeyri-qanuni fəaliyyət və ya dövlətin maraqlarına zidd olan hərəkətlər əsla qəbuledilməzdir.

Qaldı ki, ermənilərin yaydığı məlumatlara, bunlar hamısı provakasiyadır. Son zamanlar provakasiyaları törədənlər Vardanyan və onun ətrafındakı kənar qüvvələrdir. Cənab Prezident də son çıxışlarının birində qeyd etmişdi ki, bu məsələlərdə Ermənistandan daha çox can-fəşanlıq edənlər var. Buna baxmayaraq, provakasiyaların da ermənilərə heç bir xeyri yoxdur. Azərbaycan kifayət qədər güclüdür. Bizim faydalı qazıntılarımızı qanunsuz istismar edən şəxslər faktiki olaraq orada yaşayan erməniləri həmin ərazilərdə girov saxlayırlar, onları şantaj edirlər və qorxudurlar. Bu hadisələr baş verməzdən öncə azərbaycanlılar Qarabağda ermənilərin yaşadığı kəndlərdən yol çəkiblər. Sərsəng su anbarından gələn sudan istifadə ilə bağlı danışıqlar aparıblar. Bunlar hamısı faktdır. Deməli, azərbaycanlılarla ermənilər normal ünsiyyət qura bilir və problemləri həll edə bilirlər. Artıq münaqişə bitib. Gələcək haqqında düşünmək lazımdır.

Həmin qüvvələr işə salındı, onlar Qarabağa göndərildi və qeyri-qanuni müdaxilələr etdilər. Ona görə də o qüvvələr nə qədər tez bizim ərazilərimizdən çıxsalar, onlar üçün bir o qədər yaxşı olar, çünki ərazilərimizdə cinayət törədiblər. Başqa dövlətin ərazisinə soxularaq qeyri-qanuni müdaxilə ediblər. Onlar ərazilərimizdən çıxdıqdan sonra biz Azərbaycan vətəndaşı olan ermənilərlə əlaqələrimizi daha da yüksək səviyyədə qura bilərik", - deyə deputat qeyd edib.

Politoloq İlyas Hüseynov isə bildirib ki, Şuşa-Xankəndi yolunda davam edən ekoaksiyanın 17-ci günüdür və arxada qalan 17 günü təhlil edərkən ciddi nəticələrin olduğunu görmək olar: "Artıq 17-ci gündür ki, "Dəmirli" (Kaşen) mis-molibden yatağının yırtıcı istismarı aparılmır. Artıq 17-ci gündür ki, kükürd dioksid, ağır metallar və digər zərərli maddələr havaya, torpağa və suya atılmır. Artıq 17-ci gündür ki, qeyri-qanuni iqtisadi fəaliyyət həyata keçirilmir. Beləliklə Ermənistanın keçmiş prezidenti Serjik Sarqsyanın keçmiş ortağı və sponsoru olan Vallex qrupun zənginləşməsi baş vermir. Bununla yanaşı, "Mühari-bə partiyası" gəlirlərdən məhrum olur. Artıq 17-ci gündür ki, çirkli pulların yuyulması üzrə ekspert Ruben Vardanyan Qarabağa humanitar xarakterli yüklərin tranzitinə mane olur. O, sadə insanların iztirablarına qətiyyən əhəmiyyət vermir, regionda sülhə olan kövrək ümidi pozmaq üçün əlindən gələni edir. Gələcəkdə siyasi sıçrayış və tramplin kim hazırki vəziyyətdən istifadə edir. Özünü cəsur "döyüşçü" kimi göstərməyə çalışır. Həmçinin dünya erməniliyini materiallarla təmin etmək missiyasını yerinə yetirir. Artıq 17-ci gündür ki, beynəlxalq ictimaiyyət Ruben Vardanyanın vəhşiliklərinə səssiz qalır və onun fransız sponsorları bölgəyə mifik "beynəlxalq sülhməramlıların" daxil edilməsi tələblərini əsaslandırmaq üçün "blokada" və "humanitar fəlakət" povestini alovlandırırlar".

Qeyd edək ki, Sosial Tədqiqatlar Mərkəzi davam edən aksiyalar və gözləntilərlə bağlı ictimai rəy sorğusu keçirib.

"Xankəndi-Laçın yolundakı aksiyaları izləyirsinizmi?" sualına cavab olaraq, sorğuda iştirak edənlərin ümumilikdə 88.1%-i aksiyaları izlədiyini bildirib. Respondentlərin 54.1%-i "tez-tez izləyirəm", 34.0%-i "bəzən izləyirəm" cavabını verib. 11.9%-i "heç izləmirəm" cavabını qeyd edib.

Eyni zamanda, "Sizcə, bu aksiyalar Azərbaycanın təbii sərvətlərinə qarşı aparılan terrora son qoyacaqmı?" sualına münasibətdə respondentlərin 78.6%-i "bəli" cavabını verib. Sorğuda iştirak edənlərin 14.2%-i "xeyr" cavabını qeyd edib, 7.2%-i bu barədə fikir bildirməkdə çətinlik çəkib.

Politoloq hesab edir ki, bu 17 gün bizi Qarabağın beynəlxalq sponsorların dəstəyi ilə klan-mafiya rejiminə çevirdiyi "boz yurisdiksiya zonası"ndan çıxmağa başlayacağı günə yaxınlaşdırır.

***Murad İbrahimli***



# İlham Əliyev xanımı və nəvələri ilə birlikdə Şabranda

***Dekabrın 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Şabran rayonunda "Şabran" İstirahət Kompleksinin açılışında iştirak ediblər.***

"Unikal" xəbər verir ki, dövlətimizin başçısı, birinci xanım və ailə üzvləri kompleksdə yaradılan şəraitlə tanış oldular. Azərbaycan Respublikası Prezidentinin İşlər müdiri Ramin Quluzadə dövlətimizin başçısına və birinci xanıma oteldə görülən işlər barədə məlumat verdi.

# Hikmət Hacıyev İran səfiri ilə GÖRÜŞDÜ



***Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev İranın Azərbaycandakı səfiri Seyid Abbas Musəvi ilə görüşüb.***

"Unikal" xəbər verir ki, bu barədə səfir Tvitter səhifəsində məlumat yayıb.

"Azərbaycan Prezidentinin xarici siyasət məsələləri üzrə köməkçisi Hikmət Hacıyevlə konstruktiv görüşdə biz, ikitərəfli münasibətlərimizdəki son hadisələri və Cənubi Qafqaz regionundakı mövcud vəziyyəti, eləcə də ikitərəfli əlaqələrimizin möhkəmləndirilməsi üçün əməli addımları nəzərdən keçirdik" - səfir qeyd edib.

# Vasif Talıbovun prokuror qardaşı işdən çıxdı

***Naxçıvan Muxtar Respublikası prokurorunun müavini Məhərrəm Talıbov işdən çıxması ilə bağlı müraciət edib.***

"Unikal"ın əldə etdiyi məlumata görə, onun istefa ərizəsi qəbul edilib.

Qeyd edək ki, Məhərrəm Talıbov Naxçıvan Ali Məclisinin sədri Vasif Talıbovun qardaşıdır.

Xəbəri Baş Prokurorluğun Mətbuat Xidmətindən "Unikal"a təsdiqləyiblər.

***Orxan Həsənli***

Baş redaktor:
**Zaur Əhməd**

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5"
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:1700

**ELAN**

Azərbaycan Respublikası Prezidentinin 20 iyun 2014-cü il tarixli 569 nömrəli sərəncamına əsasən müharibə əlili Əliyev Bayram Əli oğluna Suraxanı rayonu, Hövsan qəsəbəsi, Zığ şossesi-Hava limanı 12-ci km "22" ünvanında (ev 2, mərtəbə 4, mənzil 3) mənzil verilməsi barədə Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin əmrindən çıxarış itdiyi üçün etibarsız sayılır.

# Baş Qərargah rəisindən tapşırıq: "Döyüş hazırlığına xüsusi diqqət edilsin"

***Müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev və nazirliyin digər rəhbər heyəti azad edilmiş ərazilərdə dislokasiya olunan hərbi hissələrdə olublar.***



"Unikal" xəbər verir ki, əvvəlcə birliyin idarə heyəti ilə görüşən Baş Qərargah rəisi müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırıqlarını aidiyyəti üzrə şəxsi heyətə çatdırıb. Şəxsi heyətin peşəkarlığı və qoşunların döyüş hazırlığına xüsusi diqqət yetirilməsi, təlimlərin, o cümlədən səhra məşğələlərinin intensivliyinin artırılması barədə tapşırıqlar verib.

Sonra döyüş mövqelərində növbətçilik aparan heyətlə görüşən general-polkovnik K.Vəliyev onun döyüş və mənəvi-psixoloji hazırlığını yüksək qiymətləndirib.

Daha sonra Azərbaycan Ordusunun Baş Qərargah rəisi bir neçə hərbi hissələri, o cümlədən Komando hərbi hissəsini ziyarət edib, həmçinin Şuşada xidmət edən hərbi qulluqçularla görüşüb.

General-polkovnik K.Vəliyev hərbi hissələrdə şəxsi heyət üçün yaradılan şəraitlə tanış olub, döyüş qabiliyyətinin daha da artırılması və döyüşə hazırolma vəziyyətinin yüksək səviyyədə saxlanılması barədə tapşırıqlar verib.

Şəxsi heyətlə görüşlərdə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında Orduda aparılan islahatlar çərçivəsində əldə olunmuş nailiyyətlərdən danışan Baş Qərargah rəisi həyata keçirilən tədbirlər nəticəsində Azərbaycan Ordusunun əməliyyat və döyüş imkanlarının xeyli artdığını qeyd edib.

Müdafiə nazirinin birinci müavini şəxsi heyətin taktiki-xüsusi hazırlığının və peşəkarlıq səviyyəsinin daim yüksək səviyyədə saxlanılması məqsədilə keçirilən təlim və məşqlərin keyfiyyətinin daha da artırılması, həmçinin qazanılan döyüş təcrübəsinin növbəti ildə keçiriləcək təlimlərdə də geniş tətbiq edilməsi ilə bağlı komandanlıq qarşısında müvafiq tapşırıqlar qoyub.

Şəxsi heyətlə birlikdə nahar etdikdən sonra Baş Qərargah rəisi hərbi qulluqçuların qayğıları ilə maraqlanıb və Müdafiə Nazirliyinin rəhbərliyi adından onları qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə təbrik edib.

# "Naxçıvanda Ermənistana qarşı mitinqlər keçirilməlidir"

## Deputatdan təklif: "Ermənistan 30 ildir Naxçıvanı blokadada saxlayır, yolun açılmasını tələb edirik"

Ermənistanın baş naziri Nikol Paşinyan Nazirlər Kabinetinin iclasında deyib ki, Qarabağda qanunsuz məskunlaşan erməni əhalisi lazımi malların qıtlığı ilə üzləşib. O, bütün bunları nəzərə alaraq, təsdiqlənmiş humanitar böhranın idarə olunmasında "Dağlıq Qarabağ xalqına" dəstək olmaq üçün baş nazirin müavini Tiqran Xaçatryanın rəhbərliyi ilə işçi qrup yaratmaq qərarına gəldiyini bildirib.

Sülh müqaviləsinin imzalanmasından danışan Ermənistan tərəfinin bu cür addımları başa düşülən deyil.

Deputat Fazil Mustafa bununla bağlı "Unikal"a açıqlamasında bildirib ki, kim hay-küy salırsa, diqqət ona yönəlir. Deputat bildirib ki, biz bu istiqamətdə zəif tərpənirik:

"Nə üçün Naxçıvanda əhalinin blokadadan çıxma tələbi ilə Ermənistana qarşı mitinq keçirməyək? Niyə bu tələbi səsləndirməyək ki, Ermənistan 30 ildir Naxçıvanı blokadada saxlayır. Yolun açılmasını tələb edirik. Əhalini bu prosesə cəlb etməliyik. Ermənistan hansı metoddan istifadə edirsə, biz də bundan müəyyən dərəcədə istifadə etməyə çalışmalıyıq. Naxçıvan məsələsini aktuallaşdırmalıyıq. Qarabağa orada yaşayan ermənilərin yolu var, Naxçıvanın isə quru yolu yoxdur. Bəs bu necə olsun? Biz metodları axtarıb tapmalıyıq. Ekologiya ilə bağlı müsbət addım atıldı, nəticəsi yavaş-yavaş ortaya çıxır. Eyni şeyi Naxçıvanla bağlı da etməliyik".

F.Mustafa qeyd edib ki, Naxçıvan sakinləri yığışıb mitinq keçirib blokadanın ləğv olunmasını, Ermənistanın beynəlxalq ictimaiyyət tərəfindən təzyiqə məruz qalmaqla bu yolu açmasını təmin etməliyik:



"Humanist addımın atılması tələbi ilə məsələni gündəmə gətirməliyik. Bunlar hamısı olmalıdır. Erməni istəyir ki, təxribat yaratsın, öz istədiyini yerinə yetirsin. Ona görə də bu məsələdə özümüzdən asılı məqamlara diqqət yetirərək qarşılıqlı addımlar atmalıyıq".

***Anar Kəlbiyev***

# Çavuşoğlu Fransa XİN başçısı ilə müzakirə apardı

***Türkiyə xarici işlər naziri Mövlud Çavuşoğlu bu gün Fransanın Avropa və Xarici İşlər naziri Ketrin Kolonna ilə telefon danışığı aparıb.***



"Unikal" xəbər verir ki, bu barədə Türkiyə XİN-dən bildirilib. Qeyd olunub ki, danışıq zamanı dekabrın 23-də Parisdə bir Fransa vətəndaşının hücumundan sonra zorakılığa səbəb olan hadisələr müzakirə olunub.

Çavuşoğlu beləliklə Fransanın terror təşkilatlarının əsl üzünü gördüyünü, PKK/PYD/YPG dairələrinin hücum bəhanəsi ilə Türkiyəyə qarşı başlatdığı qara təbliğatın, bu təbliğat fəaliyyətlərinə icazə verilməməsinin lazım olduğunu vurğulayıb.

# Anar Kərimov üçün həbs anonsu

## Keçmiş nazir iki ildə korrupsiya və rüşvət baxımından sələfi Əbülfəs Qarayevi belə vurub keçibmiş - şok faktlar!

***Məlum olduğu kimi, ötən həftə - dekabrın 22-də mədəniyyət naziri Anar Kərimov tutduğu vəzifədən azad olundu. Keçən sayımızda da yazdığımız kimi, bu qərar sürpriz deyildi. Belə ki, noyabrın 1-də Dövlət Təhlükəsizliyi Xidməti (DTX) Mədəniyyət Nazirliyində əməliyyat keçirmiş və qurumda ciddi korrupsiya halları aşkarlanmışdı.***

Xatırladaq ki, əməliyyat zamanı mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev, nazirliyin Təchizat və Əmlak Şöbəsinin müdiri İlkin Nəsibov, Protokol Şöbəsinin rəisi Kamil Rzayev və digər vəzifəli şəxslər saxlanılaraq istintaqa cəlb ediliblər. Bundan başqa, Şəmkir Regional Mədəniyyət İdarəsinin rəisi Azər Rəcəbov, həmin idarənin İnsan resursları şöbəsinin rəisi Ələkbər Əliyev və məsləhətçisi Seymur Səfərov korrupsiya əməllərinə görə həbs olunublar.



Yerli media diqqəti ona çəkir ki, həbs edilənlərdən biri - Azər Rəcəbov vur-tut 6 ay imiş ki, Şəmkir Regional Mədəniyyət İdarəsinin rəisi vəzifəsinə təyinat alıbmış. Bu isə onu göstərir ki, Anar Kərimov haqlı olaraq özündən əvvəlki nazir Əbülfəs Qarayevin kadrlarını "təmizləyərkən" əvəzində rüşvət, korrupsiya sarıdan heç də həmin kadrlardan geri qalmayan şəxslərə vəzifə verib. Bir sözlə, məşhur deyimlə söyləsək, "gələn gedənə rəhmət oxutdurub".

Bəzi iddialara görə, hələ DTX-nin əməliyyatından bir qədər öncə Hesablama Palatasının Mədəniyyət Nazirliyində apardığı yoxlamalar zamanı ciddi yeyinti faktları aşkarlanıb. Aydınlaşıb ki, yenə antikorrupsiya əməliyyatı nəticəsində iki il öncə postunu itirən Əbülfəs Qarayevin gedişindən sonra bu nazirlikdə nəinki müsbətə doğru dəyişən bir şey olmayıb, üstəlik, mənimsəmə sarıdan vəziyyət daha da pisləşib.

"Unikal"ın araşdırması zamanı aydınlaşıb ki, Hesablama Palatası Mədəniyyət Nazirliyində kənar dövlət maliyyə nəzarəti tədbirinə bu ilin aprelində başlayıb. Palatanın 2022-ci il üçün iş planına uyğun olaraq, nazirlikdəki yoxlamanın bir aydan çox davam etdiyi və ağlasığmaz yeyinti əməllərinin aşkarlanması ilə müşayiət olunduğu vurğulanır.

O da bildirilir ki, auditin nəticələri barədə məlumatlar Hesablama Palatasının 2022-ci il fəaliyyəti haqqında hesabata daxil ediləcək. Hesabatın növbəti ilin ilk aylarında açıqlanacağını nəzərə alsaq yəqin ki, tezliklə ictimaiyyət Anar Kərimov və ətrafının dövlət vəsaitlərini necə talan etdiyi barədə konkret faktlarla tanış ola biləcək.

Bundan başqa, araşdırmalarımız Hesablama Palatasının dövlət sifarişi və Mədəniyyət Nazirliyinin xətti ilə çəkilən filmlər üçün dövlət büdcəsindən ayrılan vəsaitlərin istifadəsi ilə bağlı yoxlama apardığını da aydınlaşdırıb. Məlum olub ki, həmin vəsaitlər də Əbülfəs Qarayevin dövründə olduğu kimi yenə də səmərəsiz xərclənib. Nəticələrə əsasən, kinonun normativhüquqi və iqtisadi bazasını təşkil edən aktların təkmilləşdirilməməsi və genişləndirilməməsi, eyni zamanda 18 il əvvəl qəbul edilmiş qaydaların müasir tələblərə və çağırışlara cavab verməməsi, bu sahədə çalışan yaradıcı heyətin tam əhatə olunmaması səbəbindən qaydalarda nəzərdə tutulmayan yaradıcı hallar üzrə qonorar ödənişlərinə səbəb olub.

Qeyd edilən sahə üzrə "dövlət sifarişi" anlayışının hüquqi aktlarda konkret təsbit olunmaması, eləcə də sifarişin çərçivəsinin və istiqamətlərinin müəyyənləşdirilməməsi bəzi hallarda vəsaitlərin təyinatının dəyişdirilməsinə, bir sıra hallarda isə filmlərin başa çatdırılmayaraq konservasiyası ilə nəticələnib.

Dövlət sifarişi ilə çəkilən filmlərin seçilmə meyarlarının müəyyən olunmaması və dövlət sifarişi ilə hazırlanan filmlərin smeta xərclərinin siyahısının təsdiq edilməməsi, filmlərin çəkilişi ilə bağlı ayrılmış vəsaitlər üzərində hesabatlılığın və inzibatçılığın müəyyən edilməməsi səbəbindən bu vəsaitlərin studiyalar tərəfindən təyinatının dəyişdirilməsi və s. məqamlar təsdiqedici sənədlərin təqdim olunmaması kimi halların yaranmasına da səbəb olub.

"Unikal"a danışan mənbənin sözlərinə görə, istər Anar Kərimovun həbs və ya istintaqa cəlb edilən kadrları ilə bağlı təhqiqat, istərsə də Hesablama Palatasının açıqlanacaq hesabatında biz dövlət satınalmaları ilə bağlı da kifayət qədər ciddi korrupsiya hallarının ortaya çıxarıldığına şahidlik edə bilərik. Həmçinin, nazirliyin büdcə vəsaitlərini ölkədə mədəniyyətin inkişafına yönəltmək əvəzinə gərəksiz tədbirlərə xərclədiyi, sənət adamlarına verilməli olan qonorarların bir hissəsinin mənimsənildiyi, bir sıra tədbirlər üçün ayrılan vəsaitlərin görünməmiş dərəcədə şişirdildiyi və s. kimi qanunsuzluqların da gün işığına çıxacağı şübhə doğurmur.

Daha bir ilginc məlumata görə, dövlət büdcəsindən ayrılan milyonlarla vəsait Anar Kərimovun yaxın çevrəsinin adına təsis etdiyi və həyat yoldaşı Mehriban Kərimova tərəfindən idarə olunan "Cultural Network House" və digər şirkətlər üzərindən mənimsənilib. Yerli KİV hələ bir müddət əvvəl yazmışdı ki, Anar Kərimov həyat yoldaşı Mehriban Kərimova üçün paytaxtın mərkəzi küçələrindən birində son bir ildə əldə etdiyi, ümumi sahəsi 400 kvadrat, dəyəri təqribən 3 milyondan çox olan ofis alıb.

Bir sözlə, Anar Kərimov ona göstərilən etimadı nəinki doğrulda bilib, əksinə, Mədəniyyət Nazirliyində qaranlıq işlər Əbülfəs Qarayevin dönəmini belə vurub keçib - özü də iki il kimi qısa müddətdə! Məhz bu baxımdan Anar Kərimovun vəzifəsindən azad edilməsi sürpriz olaraq qarşılanmadığı kimi, qarşıdakı müddətdə onun özünün də cinayət məsuliyyətinə cəlb edilməsi kimsəni təəccübləndirməyəcək..

***Toğrul Əliyev***

# Bu Komissiyanın yeni tərkibi müəyyənləşdi - Sərəncam

***Azərbaycan Respublikasının ərazisindən Qazaxıstan neftinin nəql edilməsi məsələlərinin həlli üçün yaradılmış komissiyanın yeni tərkibi müəyyənləşib.***

"Unikal" xəbər verir ki, bu, Prezident İlham Əliyevin sərəncamı ilə "Azərbaycan Respublikasının ərazisindən Qazaxıstan neftinin nəql edilməsi məsələlərinin işlənib hazırlanması ilə əlaqədar bəzi tədbirlər haqqında" sərəncama edilən dəyişiklikdə əksini tapıb.

Komissiyanın yeni tərkibi aşağıdakı kimidir:

**Komissiyanın sədri**

Azərbaycan Respublikası Baş nazirinin müavini

**Komissiya sədrinin müavini**

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti

**Komissiyanın üzvləri**

Azərbaycan Dövlət Neft Fondunun icraçı direktoru

Azərbaycan Respublikası xarici işlər nazirinin müavini

Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini

Azərbaycan Respublikası ədliyyə nazirinin müavini

Azərbaycan Respublikası rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini

Azərbaycan Respublikası maliyyə nazirinin müavini

Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri

# Sabiq Bələdiyyə sədri 1,8 milyonluq torpağı ələ keçirməyə cəhd edib

***Səbail Bələdiyyəsinin sabiq sədri barəsində cinayət işi üzrə ibtidai istintaq Baş Prokurorluğun İstintaq idarəsində tamamlanıb.***



"Unikal" xəbər verir ki, bu barədə Baş Prokurorluq məlumat yayıb. "Bəzi media qurumları tərəfindən Səbail Bələdiyyəsinin sabiq sədri Hüseynov Əhməd Həsən oğlunun barəsində Cinayət Məcəlləsinin 178.4-cü (xüsusilə külli miqdarda dələduzluq) maddəsi ilə cinayət işinin başlanmasına dair dəqiqləşdirilməmiş məlumatlar yayılıb.

Baş Prokurorluğun Mətbuat xidməti tərəfindən qeyd olunan informasiya ilə bağlı bildirilir ki, Əhməd Hüseynovun Cinayət Məcəlləsinin bir neçə maddəsi ilə təqsirləndirilməsinə dair cinayət işi Baş Prokurorluğun İstintaq idarəsində istintaq edilib.

İstintaqla Əhməd Hüseynovun qabaqcadan əlbir olan bir qrup şəxs halında dövlət və bələdiyyəyə məxsus, ümumilikdə 1 milyon 824 min manat dəyərində torpaq sahələrini ələ keçirməyə cəhd etməsi, habelə rəsmi sənədi ilə saxtalaşdırmasına əsaslı şübhələr müəyyən edilib.

Əhməd Hüseynova Cinayət Məcəlləsinin 29, 178.4, 309.1, 313 və digər maddələri ilə ittiham elan edilmiş və 27.12.2022-ci il tarixdə cinayət işi üzrə ibtidai istintaq tamamlanaraq baxılması üçün Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilmişdir", - deyə məlumatda qeyd olunub.



## Bəxtiyar Hacıyev aclıq aksiyasını dayandırdı

***"Bəxtiyar Hacıyev ailə üzvlərinin, ictimaiyyətin və vəkillərinin fikrini nəzərə alaraq aclıq aksiyasını rəsmi və faktiki olaraq dayandırıb".***

"Unikal" xəbər verir ki, bu barədə vəkil Aqil Layıc məlumat yayıb. "Hazırda səhhəti normaldır, həkim nəzarətilə qidalanmağa başlayıb. Ona dəstək olan hər kəsə minnətdarlığını bildirdi", - deyə o bildirib.

Qeyd edək ki, bu gün Xətai Rayon Məhkəməsində Bəxtiyar Hacıyevin ev dustaqlığına buraxılması ilə bağlı vəsatətə baxılacaq.

## Nazir bu şöbələrlə bağlı əmr verdi

***Azərbaycanda iki polis şöbəsinin statusu dəyişdirilib.***



Bakı Metropoliteninin Mühafizəsi Üzrə Polis Şöbəsi və Bakı şəhər Pirallahı Rayon Polis Şöbəsinin statusu ləğv edilib. Hər iki şöbəyə idarə statusu verilib.

Daxili işlər naziri Vilayət Eyvazovun son əmri ilə Bakı Şəhər Baş Polis İdarəsinin nəzdindəki rayon polis idarələrinin sayı 12-yə çatıb.

Qeyd edək ki, idarə şöbədən daha yuxarı səlahiyyətli struktur hesab olunur.

## Əhməd Hüseynov 2 milyonluq torpağı ələ keçirmək istəyib - Rəsmi

***Səbail Bələdiyyəsinin sabiq sədri Hüseynov Əhməd Həsən oğlu 2 milyona yaxın qiyməti olan torpaq sahələrini ələ keçirməyə cəhd edib.***

Baş Prokurorluğun Mətbuat xidmətindən verilən məlumata görə, Əhməd Hüseynovun Cinayət Məcəlləsinin bir neçə maddəsi ilə təqsirləndirilməsinə dair cinayət işi Baş Prokurorluğun İstintaq idarəsində istintaq edilib.

İstintaqla Əhməd Hüseynovun qabaqcadan əlbir olan bir qrup şəxs halında dövlət və bələdiyyəyə məxsus, ümumilikdə 1 milyon 824 min manat dəyərində torpaq sahələrini ələ keçirməyə cəhd etməsi, habelə rəsmi sənədi ilə saxtalaşdırmasına əsaslı şübhələr müəyyən edilib.

Əhməd Hüseynova Cinayət Məcəlləsinin 29, 178.4, 309.1, 313 və digər maddələri ilə ittiham elan edilib və 27.12.2022-ci il tarixdə cinayət işi üzrə ibtidai istintaq tamamlanaraq baxılması üçün Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib.

# "Məmurların qapısı vətəndaşların üzünə açıq olmalıdır"

## Siyavuş Novruzov: "Kim bu tezisləri qəbul etmirsə, onlar nəinki işindən azad ediləcək, həm də məsuliyyətə cəlb olunacaq"

***Milli Məclisin Regional məsələlər komitəsinin sədri, deputat Siyavuş Novruzov "Unikal"a müsahibə verib. O, Naxçıvan Muxtar Respublikasına yeni rəhbərin təyin olunmasından, qiymətlərin bahalaşmasından, növbəti ildə hansı islahatların ola biləcəyindən, Zəngəzur dəhlizinin əhəmiyyətindən və başqa məsələlərdən danışıb.***

***-Siyavuş müəllim, dekabrın 22-də Fuad Nəcəfli Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi təyin edilib. Bu təyinatdan sonra Naxçıvanda hansı yeniliklərin olacağı gözlənilir?***



-Prezident İlham Əliyev tərəfindən ölkəmizin hər yerində islahatlar həyata keçirilir. Bu islahatlar Azərbaycanın hər bir guşəsini, o cümlədən Naxçıvan Muxtar Respublikasını əhatə edir. Azərbaycanda 14 iqtisadi zona yaradılıb. Getdikcə bu prosesin aktivləşməsi müşahidə olunur. Milli Məclisin Regional məsələlər komitəsi olaraq bizə də həm bələdiyyələrin, həm də rayon icra hakimiyyətlərinin həmin strukturlara uyğunlaşdırılması və s. məsələlərlə bağlı müraciətlər daxil olur. Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə Azərbaycan Prezidentinin xüsusi nümayəndələrinin işi ilə bağlı irəliləyişlər var, çox böyük işlər görülür. Bu, praktikadan çıxmış strukturdur və əsasnamə ilə fəaliyyət göstərir. Bildiyiniz kimi, Naxçıvan Muxtar Respublikasında Prezidentin səlahiyyətli nümayəndəsi təyin edilib. Bu da Prezidentin səlahiyyətləri daxilində olan məsələdir və istənilən bölgəyə səlahiyyətli nümayəndə təyin etmək hüququ var. İnanıram ki, Naxçıvanda da yeniliklərin şahidi olacağıq.

***- Naxçıvanın Muxtar Respublika statusunun ləğvi ilə bağlı iddialar irəli sürülür. Bunun üçün isə referendum çağırılmalıdır. Necə düşünürsüz, Naxçıvanın Muxtar Respublika statusunun ləğvi gözləniləndirmi və orada hansı struktur islahatları ola bilər?***

-Naxçıvanda ayrı-ayrı strukturların ləğv olunması və yaxud Baş idarəyə çevrilməsi prosesi gedir. Dövlətin apardığı işdir. Güman edirəm ki, bu iş davamlı şəkildə olacaq. Referendumun çağırılması isə Prezident İlham Əliyevin səlahiyyətinə, bir də Milli Məclisə aiddir. Belə ki, Milli Məclisin üçdə ikisindən çoxu referendumun çağırılması ilə bağlı qərar qəbul edirsə, referendum çağırıla bilər. Bu baxımdan, belə bir qərarın nə vaxt olacağını deyə bilmərik. Bu, cənab Prezidentin səlahiyyətində olan məsələdir.

***-Bildiyimiz kimi, Milli Məclisdə 5 saylı Şahbuz-Babək seçki dairəsini təmsil edirsiz. Yaxın vaxtlarda Naxçıvana getməyi düşünürsüzmü?***

-Təbii ki, yaxın vaxtlarda gedəcəm. Mütəmadi seçicilərimizlə görüşlər keçirmişik. Pandemiya səbəbindən görüşlərin keçirilməsi təxirə salındı. Milli Məclisin komitə iclaslarını onlayn keçirirdik, plenar iclaslarda da məsafə saxlamaqla əyləşirdik. Bu proseslər səngiyəndən sonra yay fəslində Naxçıvana getmişdim. İndi parlamentin payız sessiyası bitdikdən sonra getməyi düşünürəm.

***-Struktur islahatları ilə bağlı qeyd etdiniz. Artıq 2022-ci il yekunlaşır, növbəti ildə hansı sahələrdə islahatların, dəyişikliklərin olması gözlənilir?***

-Cənab Prezidentin gözəl bir fikri var ki, hər şey vətəndaşlar üçündür. Hər bir məmur vətəndaş üçün çalışmalıdır. Məmurların qapısı vətəndaşların üzünə açıq olmalıdır. Həmişə vətəndaşlarla görüşməli, onları dövlətdən narazı salmalı deyillər. Əksinə, dövlətin onların arxasında durmasını göstərməlidirlər. O cümlədən, sosial problemi, ehtiyacı olan insanlara dəstək göstərilməlidir. Kim bu tezisləri qəbul edir, öz əsas iş prinsipi kimi seçirsə, o adamlar gələcəkdə də fəaliyyətini davam etdirəcək. Kim qəbul etmirsə, onlar nəinki işindən azad ediləcək, həm də məsuliyyətə cəlb olunacaq.

***-Sosisal problemi olan insanlara dəstəkdən danışdınız. Qiymətlərin bahalaşması əsas müzakirə mövzusudur. Bu qiymət artımlarının qarşısını almaq üçün hansı qabaqlayıcı tədbirlər görülməlidir?***

-Milli Məclisdə 2023-cü ilin dövlət büdcəsi zərfinə daxil olan məsələlər müzakirə edilərək qəbul olundu. Bu, müstəqillik dövrümüzün ən böyük büdcəsidir. Sosial sahəyə büdcədən 17 milyard vəsait ayrılır. Həmçinin, əhalinin pensiyasının, əmək haqqısının artırılması üçün xeyli vəsait nəzərdə tutulub. Qiymətlərin bahalaşmasına gəldikdə, elə məsələlər var ki, Azərbaycandan asılı deyil. Dünyanın müxtəlif yerlərində, Avropadan başlamış Asiya ölkələrinə qədər 20-25, bəzi yerlərdə isə qiymətlər 30 faizə qədər bahalaşama var. Azərbaycana idxal olunan məhsulların bir çoxu bu ölkələrdən gəlir. İstər-istəməz bu da qiymətlərə təsir edir. Hansı məhsulu istehsal etmiriksə, onu alırıq. Taxılla bağlı sərt şəkildə qərar verilib. Belə ki, çörəyin və taxıl məhsulları ilə bağlı bəzi qiymətlərdəki artım ciddi şəkildə nəzarətdədir. Digər məsələlərdə artım isə tək bizim ölkənin problemi deyil. Məsələn, tikinti materiallarının bir çoxunu istehsal etmirik. İstər-istəməz həmin materillar tikintinin qiymətinə müəyyən təsir edəcək. Kim desə ki, təsir etməyəcək, vətəndaşları aldatmaqla məşğuldur. Baş nazir Əli Əsədov parlamentdə çıxışında qeyd etdi ki, maksimum dərəcədə çalışırlar ki, vətəndaşlarımız qiymət artımlarını o qədər də hiss etməsin. Növbəti il üçün proqnoz vermək tək bizim iqtisadçıların gücü daxilində deyil.

***-Qiymət artımında siz dediyiniz obyektiv məsələlərlə yanaşı subyektiv amillər də qeyd olunur. Belə ki, qiymət artımlarında, bahalaşmada monopoliya, inhisarçılıq çox mühüm rol oynayır...***

-Onların da qarşısı alınmalıdır. İstər süd, istər ət, istərsə də tərəvəz və digər məhsulların istehsalını hansısa monopolistlər əlinə götürüb, xeyli sayda vəsait ələ etməsin. Buna da ciddi nəzarət olmalıdır. Nəzarət orqanlarına bu tapşırıqlar verilib. Onlar da nəzarət etməlidirlər ki, vətəndaşlarımızın yaxşı həyat tərzi təmin olunsun. Kəndçiyə şərait yaradılmalıdır ki, öz məhsulunu sərbəst sata bilsin.

***-Ən çox müzakirə mövzusu olan məsələlərdən biri də Zəngəzur dəhlizinin açılması ilə bağlıdır. Növbəti ildə bu istiqamətdə hansı addımlar atılacaq və dəhlizin açılması gözlənilirmi?***

-Zəngəzur dəhlizinin açılması çox vacibdir. Bu, tək bizim ölkə ərazisi çərçivəsində deyil, eyni zamanda beynəlxalq dəhlizdir. Belə ki, Asiya və Avropanı birləşdirir, digər ölkələrin də buna qoşulması üçün geniş imkanlar açır. Azərbaycan dövləti bununla əlaqədar var qüvvəsi ilə çalışır. Dəfələrlə Prezident İlham Əliyev bildirib ki, nəyin bahasına olursa-olsun, Zəngəzur dəhlizi açılacaq. Gördüyünüz kimi, son vaxtlar bununla bağlı xeyli oyunlar gedir. İranın Ermənistanda konsulluq açmasını, bədnam rusiyalı milyarder Ruben Vardanyanın Qarabağa gəlməsini, orada axmaq-axmaq bəyanatlar verməsini, o cümlədən digər məsələləri göstərmək olar. Zəngəzur dəhlizinin açılmasının gecikməsi ən çox Ermənistana ziyan vurur. Onlar özü bundan əziyyət çəkir. Bu dəhliz açılandan sonra Ermənistan tam şəkildə Avropa və Asiyaya inteqrasiya edəcək, həmin qitədəki ölkələrlə iqtisadiyyatını qura biləcək və əsas müttəfiqi Rusiya ilə birbaşa əlaqələri yaranacaq. Ümidvarıq ki, 2023-cü ildə bu məsələ birdəfəlik həll olunacaq. Tək Zəngəzur dəhlizinin açılması deyil, sülh müqaviləsi imzalanmalıdır ki, region ciddi şəkildə inkişaf etsin.

***Anar Kəlbiyev***

# Dərman bazarındakı "bezpredel"in "memarı" Elsevər Ağayev çıxdı

## Keçmiş nazir müavini dərmanların qiyməti və keyfiyyəti ilə bağlı çoxsaylı problemlərin bünövrəsini qoyubmuş

***Qəzetimizin ötən saylarının birində ölkə gündəmini məşğul edən əsas mövzulardan biri ilə bağlı ətraflı bəhs etmişdik - söhbət gah apteklərdə bir çox dərmanların qəhətə çıxması, gah da dərmanların keyfiyyəti və qiymətləri barədə narazılıqlardan gedir. Həmin yazıda sözügedən problemlə bağlı bir sıra nüanslara aydınlıq gətirməyə çalışmışdıq.***

Bu gün isə mövzuya başqa aspektdən nəzər salacağıq. Məsələ burasındadır ki, araşdırmalarımız hələ 7 il öncə - 2015-ci ildə də dərman bazarındakı neqativ halların cəmiyyətdə ciddi müzakirə predmeti olduğunu, hətta ölkə başçısının da məsələyə müdaxilə etdiyini ortaya çıxarıb. Belə ki, həmin il Prezident ilin birinci rübü ilə bağlı hökumət toplantısında sərt mövqe ifadə edib. Ölkə rəhbəri dərmanların baha olmasından danışıb və bu sahənin tənzimlənməsinin vacibliyini vurğulayıb: “Mənim narahatçılığım, eyni zamanda, dərman preparatlarının qiymətləri ilə bağlı idi. Mən xüsusi göstəriş vermişdim ki, bütün apteklərdə ciddi nəzarət təşkil edilsin və qiymətlərin qalxmasına imkan verilməsin. Eyni zamanda, onu da qeyd etməliyəm ki, dərman preparatlarının bazarı əfsuslar olsun ki, Azərbaycanda müəyyən dərəcədə nəzarətdən kənarda qalmışdır. Bu, əslində dözülməz bir hal idi. Bu hadisə deyə bilərəm ki, bizim diqqətimizi bu sahəyə daha da ciddi şəkildə yönəltdi və gördük ki, bu sahədə çox böyük pozuntular, uyğunsuzluqlar var. Bəzi hallarda dərmanların qiyməti bir neçə dəfə, bəzi hallarda on dəfə şişirdilər. Yəni, burada tamamilə özbaşınalıq və anarxiya hökm sürürdü. Kim dərmanı hansı qiymətə istəyirdi, o qiymətə də satırdı. İnsanlar da məcbur olub, o dərmanları alırdılar, böyük vəsait xərcləyirdilər, xüsusilə pensiyaçılar ki, onlara daha çox dərman lazımdır. Eyni zamanda, bəzi hallarda ölkəyə o qədər də böyük keyfiyyətə malik olmayan dərmanlar da gətirilir. Ona görə mən Səhiyyə Nazirliyinə, İqtisadiyyat və Sənaye Nazirliyinə göstəriş vermişəm ki, bu sahədə vəziyyət tamamilə nəzarətə götürülsün. Qiymətlər qalxmamalıdır. Mən hesab edirəm ki, bəzi dərmanların qiymətlərində kəskin azalma da olacaqdır”.

Hələ o vaxt Azərbaycanda dərman preparatlarının qiymətinin baha olmasının səbəbi kimi bu sahənin monopoliyada olması əsas göstərilirdi. Ölkədə dərman istehsalı əhalinin tələbatını ödəmədiyi üçün daha çox xaricdən idxal olunur. Bu işi isə bazarda bir neçə şirkət həyata keçirir.

O da vurğulanırdı ki, dərman firmalarına bu və ya digər formada nəzarəti Səhiyyə Nazirinin həmin vaxtkı müavini Elsevər Ağayev həyata keçirir. Beləliklə də, dərman bazarında anarxiya varsa, burada Elsevər Ağayevin payının böyük olduğu vurğulanırdı. Çünki Elsevər Ağayev səhiyyə nazirinin müavini kimi ölkəyə gətirilən dərmanların keyfiyyəti, qiyməti və digər məsələlərinə görə cavabdeh şəxsdir. ”Bu gün bazarda saxta, keyfiyyətsiz və həddindən artıq baha qiymətə satılan dərmanlar varsa, deməli, Elsevər Ağayev öz işinin öhdəsindən gələ bilmir, yaxud da həmin firmalara özü şərait yaradır. Məndə olan məlumata görə, indiyə kimi ölkənin dərman bazarında əsas söz sahibi olan firmaların rəhbərləri ilə Elsevər Ağayevin yaxın münasibətləri var və bu münasibətlər iş ortaqlığı səviyyəsindədir. Ancaq ölkə başçısının məlum çıxışı və xəbərdarlıq etməsi, yeni qaydaların müəyyənləşməsi Elsevər Ağayevin və dostlarının biznesini çökdürüb. Belə ki, ölkə başçısının sərt tədbirlər planı dərman bazarındakı anarxiyanı aradan qaldıracaq və işbazlar öz niyyətlərinə çata bilməyəcəklər” - deyə dönəmin mediası yazırdı.

Hətta o vaxt dərman bazarında kifayət qədər yeri olan firmaların rəhbərlərindən biri adının çəkilməməsi şərtilə mətbuata bildirmişdi ki, Elsevər Ağayev hazırkı vəziyyəti öz xeyrinə istiqamətləndirməyə çalışır. “Bu aydın məsələdir ki, prezidentin məlum təpkisindən sonra dərman bazarında təmizlənmə olacaq. Yəni, Elsevər Ağayevin nəzarətində olan bütün firmalar çökdürüləcək. Buna görə də ortaya yeni bir dərman firmasının çıxması zərurəti yaranacaq. Elə ona görə də Elsevər Ağayev fürsətdən istifadə edərək özü yeni bir dərman firması yaradır və ölkədəki apteklərin böyük əksəriyyətini də onun çətiri altında birləşməsi üçün müəyyən addımlar atıb. Bu şəbəkəyə qoşulmaq istəməyənlər isə lisenziya ala bilməyəcəkləri ilə qorxudulur. Əgər proses bu şəkildə davam etsə, qısa zamanda bazara yeni bir dərman firması, eləcə də ona bağlı apteklər şəbəkəsi yaradılacaq. Sözsüz ki, bu şəbəkəyə birbaşa Elsevər Ağayev nəzarət edəcək”, - deyə bildirilirdi.



Bir sözlə, E.Ağayevin niyyəti qısa müddətdə dərman bazarının tək hakimi olmaq idi. O, sonrakı illərdə niyyətini gerçəkləşdirmək istiqamətində müxtəlif addımlar atdı, nəticədə dərman bazarındakı ”bezpredel” daha da dərinləşdi. Lakin anlaşılmaz odur ki, keçmiş nazir müavini vəzifədən kənarlaşdırılsa da, sözügedən bazarda sular nəinki durulmayıb, əksinə, bir az da mürəkkəbləşib. Belə olmasaydı Azərbaycanda dərmanların qiyməti də, keyfiyyəti də, çatışmazlığı da gündəmin əsas müzakirə mövzularından biri olaraq qalmaz, üstəlik, Milli Məclis səviyyəsində, deputatlar tərəfindən vaxtaşırı gündəmə gətirilməzdi...

***Sənan Mirzə***



## Əli Əsədov 9 ay əvvəl verdiyi qərara dəyişiklik etdi

***Nazirlər Kabineti “Minimum istehlak səbətinin tərkibinə daxil olan bir sıra əsas ərzaq mallarının və onların istehsalında istifadə olunan malların ölkə ərazisindən aparılmasının tənzimlənməsinə dair tədbirlər haqqında” 18 mart 2022-ci il tarixli qərarında dəyişiklik edib.***

”Unikal” xəbər verir ki, bununla bağlı Baş nazir Əli Əsədov yeni qərar imzalayıb.

Qərara əsasən, gömrük ərazisindən aparılması müvəqqəti olaraq tənzimlənən malların siyahısı dəyişib.

## Yeni dəyişikliklər pensiyaçılar üçün nə vəd edir?

***”Azərbaycan Prezidenti dünən “Əmək pensiyaları haqqında” qanununda dəyişiklikləri təsdiq edib”.***

”Unikal” xəbər verir ki, bunu deputat Vüqar Bayramov deyib. Onun sözlərinə görə, mövcud qanunvericilikdə pensiya yaşına çatan və 2006-2008-ci illər aralığında kapital məbləğindən asılı olmayaraq fərdi şəxsi hesabının sığorta hissəsində pensiya kapitalı olan şəxslərə pensiya təyin edilərkən 2006-cı il yanvarın 1-dək olan sığorta stajı 25 il, 2023-cü ildən etibarən isə hər təqvim ili üçün 1 il azaldılmaqla hesablanır.

”Həmin güzəştin müddəti gələn ilin yanvarında başa çatırdı. Dünən təsdiq olunan dəyişikliklər ilə pensiya amnistiyası daha 3 il uzadılır. Belə ki, mövcud qanunvericiliyə əsasən, yaşa görə pensiya almaq üçün ya 25 il staj və ya minimum pensiya kapitalı tələb olunur. Əgər vətəndaş 2018-ci ilin iyulun 1-dək hətta 1 manat pensiya kapitalına malik olubsa, o staj müddətindən asılı olmayaraq pensiya almaq hüququ əldə edir. Belə ki, bu zaman onun 2006-cı ilədək olan stajı 25 il hesab olunur. 2026-cı ildən sonra isə hər təqvim ili üçün 1 il azaldılmaqla hesablanır.

Bu dəyişikliklər ilə 2018-ci ilin ikinci yarısınadək pensiya hesabında hətta ən kiçik məbləğ kapitalı olan vətəndaşlarımız da pensiya ala biləcəklər. Bu baxımdan, sözügüdən dəyişiklik pensiyaçıların sosial müdafiəsinin gücləndirilməsinə xidmət edəcək”.

## Hesablama Palatasına yeni auditor təyin olunacaq

***Hesablama Palatasına yeni auditor təyin olunacaq.***

”Unikal” xəbər verir ki, Milli Məclisin sabah keçiriləcək plenar iclasında “Azərbaycan Respublikası Hesablama Palatasının auditorunun təyin edilməsi haqqında” məsələ müzakirə olunacaq.

Layihəyə əsasən, Vüqar Emin oğlu İbrahimovun Hesablama Palatasının auditoru vəzifəsinə namizədliyi irəli sürülüb.

Qeyd edək ki, V.İbrahimov 2007-ci ildən Hesablama Palatasında çalışır. Hazırda isə palatanın Aparat rəhbəridir.




## "Zəfər" altsisteminə 230 mindən çox şəxsin məlumatı yerləşdirilib

***Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 153 xidmətindən artıq 138-i elektron, o cümlədən 51-i proaktiv qaydada göstərilir. 2022-ci il ərzində də 40 xidmətin elektronlaşdırılması ilə bağlı işlər aparılıb.***

"Unikal" xəbər verir ki, bu barədə Nazirliyin tabeliyindəki DOST Rəqəmsal İnnovasiyalar Mərkəzinin (DOST RİM) direktoru Kənan Əkpərov sosial sahədə elektronlaşma proqramının icrası ilə bağlı 2022-ci il üzrə görülən işlər və qurumun hədəflərinə dair keçirdiyi mətbuat konfransında məlumat verib.

O, cari ildə Nazirlik üzrə xidmətlərin elektronlaşma səviyyəsinin 90,2 faizə çatdığını vurğulayıb.

K.Əkpərov bildirib ki, bu il Nazirliyin e-xidmətlərinə 9 milyondan çox, e-sosial.az portalına 11 milyona yaxın müraciət edilib. Növbəti ildə e-sosial portalının funksionallıqlarının daha da genişləndiriləcəyi diqqətə çatdırılıb.

2022-ci ildə ümumilikdə 310 mindən çox şəxsə e-sistemlər üzərindən proaktiv təyinat aparılıb. Növbəti ildən proaktiv təyinat sahəsinin daha da genişləndirilməsi üçün Nazirliyin e-sistemlərində aidiyyat üzrə inteqrasiya və təkmilləşmə işləri davam etdirilir.

Nazirliyin 30-dan çox e-arayış xidməti vasitəsilə bu il 530 min 631 e-arayış verilib.

K.Əkpərov bildirib ki, şəhid ailələri və müharibə iştirakçılarının hüquqlarının təmin edilməsi sahəsində çevik məlumat mübadiləsinə imkan verən elektron xidmətlərdən biri "Zəfər" altsisteminə 230 mindən çox şəxsə dair məlumat daxil edilib. 44 günlük Vətən müharibəsinin iştirakçısı olan və "Müharibə veteranı" adı verilmiş şəxslərə çevik şəkildə proaktiv təqaüd təyinatının aparılmasında da "Zəfər" altsistemi mühüm rol oynayıb".

Sosial dəstək proqramlarının icrası sahəsində proaktiv təyinat mexanizmlərinin tətbiqi işlərindən də bəhs olunub. Hazırda "Himayədar ailə", "Fərdi Reabilitasiya və Abilitasiya altsistemi" , "ƏMAS" , "E-birja" habelə digər elektron xidmətlərin dairəsinin genişləndirilməsi üzrə işlər davam etdirildiyi və s. barədə də məlumat verilib.

# Sabiq nazir oğlunun Londonda yeni macəraları

## Ziya Məmmədov oğlu Anar Məmmədovla bağlı iddiaya niyə kəskin reaksiya verdi?

***Bu günlərdə sabiq nəqliyyat naziri Ziya Məmmədovun oğlu Anar Məmmədovun Virciniya adalarındakı bir şirkətdə 41 milyon funt sterlinqə (85 milyon manat) sahib olması ilə bağlı iddia ortaya atılıb. Həmçinin eks-nazir oğluna məxsus şirkətin Britaniyanın şimal-qərbində 22 restorandan ibarət "KFC franchise" şəbəkəsinə sahib olduğu bildirilib.***



Ziya Məmmədov isə mətbuata bu yazılanların həqiqətəuyğun olmadığını bildirib: "O xəbəri yazan kimdirsə, getsin o restoranı tapsın. Sonra o restoranı həmin adama bağışlayacam. Otuz ildir ki, belə cəfəngiyyat şeylər yazırlar, məndən əl çəksinlər. Anarın Britaniyada restoranı yoxdur. Bu cür məlumatlarla mənə qarşı təxribat edirlər. Əgər Allaha inamınız varsa, inanın ki, elə şey yoxdur. Mənim nəyim varsa, aşkardadır. Mən gizlində iş görən deyiləm. Restoran elə bir obyektdir ki, onu gizləmək mümkün deyil. Yalandır, böhtandır. Bir restoranım var, o da kəndimizin başındadır. Gedin, yeyin, için, kef edin. Amma Britaniyada restoranımızın olduğunu kim yazıbsa, ona deyin getsin götürsün. Həmin restoranı ona bağışladım".

Göründüyü kimi, Ziya müəllim oğlu ilə bağlı iddialara kəskin reaksiya verib. Buna bir qədər sonra aydınlıq gətirəcəyik. Lakin ata Məmmədovun yalnız restoran məsələsi üzərində dayanması diqqət çəkir. Nədənsə o, oğlunun şirkəti və 41 milyon funtsterlinq üzərindən sükutla keçir. Məntiqlə sabiq nazir həmin şirkəti və pulu da iddia sahiblərinə bağışlamalı deyildimi? Belə çıxır, Ziya müəllim deyilənlərin bu qismini həqiqət olaraq qəbul edir.

İkinci, ata Məmmədov özünə qarşı təxribatlardan danışır, amma nəyə görəsə bu təxribatın kim və ya kimlər tərəfindən, hansı məqsədlə edildiyindən danışmır. Maraqlıdır, sabiq nazirdən kim və nə istəyə bilər? Yoxsa, onun yeni vəzifə iddiasında olduğu barədə dedi-qodular doğrudurmu? Ola bilərmi ki, Ziya müəllim kimlərinsə bu istəyinə qarşı hərəkətə keçdiyini, oğlu barədə məlumatların dövriyyəyə buraxılmasını da həmin hərəkətin bir parçası olaraq qiymətləndirir? Eyni zamanda mümkündür ki, keçmiş "nəqliyyat şefi"nin kəskin reaksiyası da məhz bundan qaynaqlanır.

Üçüncü, ata Məmmədovun "Mən gizlində iş görən deyiləm" sözləri də kifayət qədər ilgincdir. Həmin sözləri də iki aspektdən dəyərləndirə bilərik. Əvvəla, Ziya müəllim həqiqətən də gizli iş görən biri deyilsə, belədə bir vaxtların ən qüdrətli məmur-oliqarxına necə çevrildiyini açıqlasın. Elə indinin özündə oğlu Anar Məmmədovun ölkə kənarında yüz milyonlarla manatlıq əmlaka və biznesə necə, hansı pullarla sahibləndiyinə ağlabatan izahat versin.

Digər tərəfdən isə "gizlində iş görən biri olmayan" sabiq nazir bununla vəzifədə olarkən ixtilafda olduğu yüksək çinli məmurlara, rəqib nazirlərəmi mesaj göndərir? Həmin rəqiblərlə rəqabətdə uduzmasını gizlindən "ayağının altının qazılması" iləmi əsaslandırmaq istəyir? Hər bir halda ata Məmmədovun bu açıqlamaları da səmimiyyətdən uzaq təsir bağışlayır. Bir zamanlar ölkənin ən korrupsioner məmurlarının siyahısında ilk sıralarda adı çəkilən keçmiş "nəqliyyat şefi"nin bu gün özünü "süddən çıxmış ağ qaşıq" kimi təqdim eləməyə çalışması həm absurddur, həm məntiqsizdir, bir az da gülməlidir.

Belə mənasız cəhdlərdənsə Ziya müəllim 100 milyon manatdan çox vəsaitin xərcləndiyi Nəqliyyatın İntellektual İdarəetmə Mərkəzi proyektinin niyə iflas etdiyinə;

yüz milyonlarla büdcə pulununun xərcləndiyi London taksilərinin çox keçmədən az qala nə üçün "metallom" çevrilməsinə;

yenə yüz milyonlarla manatın xərcləndiyi, üstəlik, 30 il təminat vəd elədiyi Bakı - Quba yolunun istismara verildikdən vur-tut bir neçə il sonra nə üçün tamamilə yararsız vəziyyətə düşdüyünə;

Bakıda inşa edilən körpülərin, ölkə ərazisində çəkilən yolların hansı səbəbdən beynəlxalq göstəricilərdən qat-qat yüksək qiymətə başa gəldiyinə, buna baxmayaraq keyfiyyət baxımından onlardan geri qaldığına və bunun kimi çoxsaylı məqamlara aydınlıq gətirməlidir.

Bütün bu sadalananlar azmış kimi onu da açıqlamalıdır ki, barəsində səslənən iddialara sərt reaksiya verdiyi oğlu niyə tamamilə xaricə daşınıb və nəyə görə az qala 5 ilə yaxındır ki, Azərbaycana ayaq basmır?

Məşhur ifadə ilə desək, "şeytran detallarda gizləndiyi" kimi, ola bilərmi sabiq nazir və oğlu ilə bağlı həqiqətlər də elə yuxarıda ortaya atdığımız suallarda gizlənib?!

***Sənan Mirzə***

# Naxçıvanda dövlət qurumlarının saytı "GOV.AZ"a köçürüldü

***Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının internet səhifələrinin "GOV.AZ" zonasında qeydiyyatdan keçirilməsi ilə bağlı müvafiq tədbirlər həyata keçirilir.***




Bu barədə "Unikal"a Azərbaycan Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətindən daxil olan məlumatda bildirilir.

Məlumatda qeyd olunub ki, ilkin olaraq Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin (nmincom.gov.az) rəsmi internet səhifəsinin "GOV.AZ" domen zonasına köçürülməsi məqsədilə Xidmətin əməkdaşları tərəfindən müvafiq təhlillər aparılmış, saytın audit yoxlamaları aparıldıqdan sonra zonada yerləşdirilməsi təmin edilib.

"Qeyd edək ki, Muxtar Respublikada 11 dövlət qurumunun rəsmi internet səhifəsi Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin proqramçıları tərəfindən yenilənib. Belə ki, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin (nnk.gov.az), Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin (nsupremecourt.gov.az), Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının (nmsk.gov.az), Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (neco.gov.az), Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin (nagro.gov.az), Naxçıvan Muxtar Respublikası Energetika Dövlət Xidmətinin (nminenergy.gov.az), Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzinin (ndim.gov.az) internet səhifələrinin audit yoxlamaları aparıldıqdan sonra "GOV.AZ" domen zonasına köçürülməsi planlı olaraq həyata keçirilməkdədir", - deyə məlumatda bildirilir.

# Heydər Əsədova növbəti "quda şoku"

## Sabiq nazirin yüksək vəzifəli ikinci qudası da işsiz qaldı

***Dövlət Gömrük Komitəsi sədrinin müavini Əsgər Abdullayev vəzifəsindən azad edilib.Yerli medianın yazdığına görə, 59 yaş olan və 16 il nazir müavini işləyən Abdullayev sabiq kənd təsərrüfatı naziri Heydər Əsədovun qudasıdır. Belə ki, keçmiş nazir müavininin qızı Gu?nay ilə sabiq nazirin oğlu Vaqif evlidirlər. Onlar Türkiyədə "VAGU turizm sanayi ve ticaret limited" adlı şirkət təsis ediblər. Şirkətin adı Vaqif və Günayın baş hərflərindən götürülüb.***



Xatırladaq ki, Heydər Əsədovun digər qudası sabiq nəqliyyat naziri Ziya Məmmədovdur. Əsədovun qızı Fəridə Ziya Məmmədovun og?lu Anar ilə evlidir.

Beləliklə, keçmiş kənd təsərrüfatı nazirinin hər iki qudası artıq işsizdirlər. H.Əsədovun özü isə 2007-2013-cü illərdə Azərbaycan Respublikası Hesablama Palatasının sədri, 2013-2018-ci illərdə kənd təsərrüfatı naziri vəzifələrində çalışdıqdan sonra bir müddət işsiz qalmış, 2019-cu ilin aprelində Azərbaycan Dövlət Dəniz Akademiyasının rektoru təyin edilmişdir.

Əsədov yüksək vəzifələrdə olarkən qudalarına kifayət qədər dəstək verib, xüsusilə Hesablama Palatasının sədri olarkən onlardan birinə - Ziya Məmmədova qarşı yetərincə "mərhəmətli" davranıb. Belə ki, Nəqliyyat Nazirliyində korrupsiya baş alıb getdiyi halda Heydər müəllim bu qurumdakı yeyintiləri ört-basdır eləmək üçün əlindən gələni əsirgəməyib.

Palata sədrliyi Əsədovun özünün də karına çox gəlib. Belə ki, beş il boyunca dövlətin iqtisadi siyasətinin prioritetlərindən birini təşkil edən aqrar sahəyə rəhbərlik edən Heydər müəllim bu postu tutduğu müddətdə ölkədə kənd təsərrüfatının ciddi inkişafına dair gözləntilər özünü doğrultmamışdı.Onun nazir olduğu dövrdə ölkədə kənd təsərrüfatının inkişafı baxımından arzuedilən nəticələr əldə edilmədiyi fikrində əksər ekspertlər, mütəxəssislər həmrəy idilər. Bəli, dövlət həm ölkənin ərzaq təhlükəsizliyinin təmin olunması, ixrac potensialının artırılması, həm də əhalinin məşğulluğunun təmin olunması və külli miqdarda valyutanın xaricə axmasının qarşısını almaq baxımından, aqrar sektorun inkişafına xüsusi diqqət ayırmışdı. Buna görə də, ölkə başçısı keçirdiyi bütün müşavirələrdə aqrar sektora xüsusi yer ayırıb, bu sahənin inkişafı ilə bağlı göstərişlər vermişdi. Eyni zamanda, kənd təsərrüfatına dövlət dəstəyinin, subsidiyaların artırılması, fermerlərin lazımı texnika və aşağı faizli kreditlərlə təmin olunması istiqamətində geniş tədbirlər həyata keçirilmişdi. Ancaq bütün bunlara baxmayaraq, Əsədov kənd təsərrüfatında sıçrayışlı inkişafın təmin edilməsinə nail ola bilməmişdi. İnkişaf yalnız şişirdilmiş statistik rəqəmlərdə özünü göstərmişdi. Böyük vəsaitlər xərclənsə də, səmərəlilik əldə olunmaması ortaya qoymuşdu ki, Heydər müəllim aqrar sahənin doğru idarəetməsini təşkil etməyi bacarmayıb, ətrafına kənd təsərrüfatını inkişaf etdirmək qabiliyyətində olan mütəxəssisləri deyil, özünə yaxın dost-tanışı toplayıb; beləliklə, aqrar sektorun problemlərini daha da dərinləşdirib; ən əsası isə dövlətin bu sahəyə ayırdığı vəsaitlərin ünvanına doğru çatmasını təmin eləyə bilməyib, şəffaflıq və hesabatlılığı arxa plana keçirib, nəticədə subsidiyalar "şapkasız", lizinqlə alınan aqrotexnika rüşvətsiz verilməyib və s.

Bütün bunlar isə onun cəmi beş ildən sonra nazir postundan uzaqlaşdırılmasına gətirib çıxardı. Aqrar sahəyə ayrılan böyük pulların istənilən nəticəni verməməsi müqabilində H.Əsədov qısa zaman kəsiyində sürətlə varlanmışdı. Bunun məntiqi izahı aydın idi - aqrar sahəyə ayrılan vəsaitlərin havaya sovrulması! Bir vaxtlar Hesablama Palatasına rəhbərlik etdiyi üçün isə Kənd Təsərrüfatı Nazirliyindəki maxinasiyaların üzərinə ciddi şəkildə gedilmirdi. Bir az da konkretləşdirsək, Əsədovun sözügedən nazirliyə rəhbərlik etdiyi dövr ərzində bu qurumda ciddi yoxlamalar aparılmamış, yaxud aparılan yoxlamalar formal xarakter daşımış, aqrar sahəni ağuşuna alan korrupsiya, yeyinti hallarına belə demək mükünsə göz yumulmuş, dırnaqarası münasibət sərgilənmişdi. Əks təqdirdə mətbuat səhifələri Kənd Təsərrüfatı Nazirliyi sistemində mənimsəmələrə dair konkret faktlarla aşıb-daşdığı halda biz Hesablama Palatasının hesabatlarında da bunu görərdik.

Bir sözlə, Əsədovun sabiq sədr olması səbəbilə nüfuzundan istifadə edərək ali audit qurumunun obyektiv yoxlamalarını əngəllədiyi aydın idi. O, qudası kimi, özünü də yoxlamalardan sığortalamağı bacarırdı.

Günümüzə gəldikdə - Heydər müəllim əvvəlki vəzifələri ilə müqayisədə aşağı postda çalışır, qudaları isə ümumiyyətlə işsiz qalıblar. Beləcə, daha bir "məmur qudalar" birliyi artıq xoş xatirəyə çevrilib...

***Sənan Mirzə***



# Generallar Kəlbəcərdə əsgərlərlə görüşdü

***Müdafiə nazirinin tapşırığına uyğun olaraq nazir müavinləri - Maddi-Texniki Təminat Baş İdarəsinin rəisi general-leytenant Nizam Osmanov və Quru Qoşunları komandanı general-leytenant Ənvər Əfəndiyev Kəlbəcər rayonu ərazisində yeni inşa edilmiş yerləşmə məntəqələrinə baxış keçiriblər və döyüş mövqelərində xidmət edən hərbi qulluqçularla görüşüblər.***

Bu barədə "Unikal"a Müdafiə Nazirliyindən məlumat verilib. Bildirilib ki, yeni yerləşmə məntəqələrində qoşun xidmətinin yüksək səviyyədə təşkili üçün yüksək peşəkarlıqla tikinti-quruculuq işləri aparılıb və bütün zəruri şərait yaradılıb.

Burada qərargah, lazımi mətbəx avadanlıqları ilə tam təchiz olunan yeməkxanalar, tibb məntəqələri, əsgər yataqxanaları, hamam-camaşırxana kompleksləri, müxtəlif təyinatlı anbarlar, döyüş və avtomobil texnikasının saxlanması üçün park, eləcə də digər infrastruktur obyektləri mövcuddur.

Yerləşmə məntəqələrində işıq, su və dayanıqlı rabitə, xətləri çəkilib, mərkəzləşdirilmiş istilik sistemi, eləcə də fasiləsiz elektrik enerjisinin təminatı üçün generatorlar və günəş panelləri ilə təchiz edilib.

Şəxsi heyətin məişət şəraiti ilə tanış olduqdan sonra onların döyüş hazırlığı yoxlanılıb. Hərbi qulluqçular sərt iqlim və kəskin relyefli ərazilərdə hərəkəti təmin edən xüsusi təyinatlı texnikadan və tanklardan istifadə etməklə qarşıya qoyulan tapşırıqları müvəffəqiyyətlə icra ediblər.

Daha sonra Kəlbəcərdə yerləşən bir neçə döyüş mövqeyində olan nazir müavinləri burada hərbi qulluqçuların xidməti-döyüş fəaliyyəti ilə maraqlanıblar.

Məruzə olunub ki, azad edilmiş ərazilərdə xidmət edən şəxsi heyətin döyüş ruhu və mənəvi-psixoloji hazırlığı yüksək səviyyədədir.

Hərbi qulluqçularla görüşən nazir müavinləri onların döyüş hazırlığının yüksək qiymətləndirib və qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü, eləcə də Yeni il münasibətilə müdafiə nazirinin təbriklərini şəxsi heyətə çatdırıb və bayram hədiyyələrini təqdim ediblər.

# Azərbaycan 4 günlük iş rejiminə keçə bilər? - Açıqlama

***2020-ci ildən etibarən bir sıra ölkələrdə həftədə 4 günlük iş rejiminə keçməklə bağlı müzakirələr aparılmağa başlanıb. Bu günlərdə Türkiyədə ilk dəfə bir korporativ şirkət daxilində həftədə 4 günlük iş rejimi tətbiq olunacağı ilə xəbər yer alıb. Belə ki, 1450 işçisi olan şirkət həmin prosesi 1 yanvar-31 mart 2023-cü il tarixləri arasında tətbiq edəcək.***

İqtisadçı deputat Vüqar Bayramov bununla bağlı "Unikal"a açıqlamasında bildirib ki, 4 günlük iş həftəsinə keçid bir sıra Avropa ölkələrində müzakirə olunur. Onun sözlərinə görə, bunu ən çox müzakirə edən və tətbiqinə hazırlaşan ölkə Böyük Britaniyadır.

"Bu ölkə 4 günün iş, qalan 3-nün isə qeyri-iş günü olmasını tətbiq etmək niyyətindədir. Azərbaycanda isə 4 günlük iş rejiminə keçiddən əvvəl əmək bazarı ilə bağlı bir sıra məsələlər var ki, onların həlli daha aktualdır. 2022-ci ildə dövlət sektorunda əmək haqqı artımları baş verdi, özəl sektorda isə buna münasib addımlar atılmadı. Bu baxımdan, Azərbaycan əmək bazarında 4 günlük iş rejiminin tətbiqi deyil, daha çox əmək hüquqlarının qorunması, əmək haqqı fondunun genişləndirilməsi, maaşların artırılması kimi məsələlər daha aktualdır".

Deputat qeyd edib ki, bu gün əmək bazarında qeyri-leqal işləyənlərin sayı az deyil: "Baxmayaraq ki, 2020-ci ildən etibarən bu sayda kəskin azalmalar var, amma yenə də qeyri-rəsmi məşğulluğun ümumi məşğulluqdakı payı yüksəkdir. Əmək müqavilələrinin böyük qismi dövlət sektorunun payına düşür. Əmək bazarının spesifik çətinlikləri və həll edilməli məsələləri var. Azərbaycanda əmək bazarında işçilərin hüquqlarının qorunması, qeyri-rəsmi məşğullun minimumlaşdırılması, xüsusən özəl sektorda maaşların artırılması ilə bağlı qərarların verilməsi, o cümlədən, məzuniyyət hüquqlarının tam olaraq yerinə yetirilməsi kimi məsələlər var. Bunlar həll edildikdən sonra növbəti mərhələdə iş rejimi ilə bağlı məsələlərə baxılması mümkündür".

***Anar Kəlbiyev***



# Dövlət Ekoloji Ekspertiza Agentliyində dinləmə keçirildi

***Dövlət Ekoloji Ekspertiza Agentliyi tərəfindən layihələrin ekoloji cəhətdən qiymətləndirilməsi, bu sahədə şəffaflığın təmin edilməsi və ictimaiyyətin məlumatlandırılması məqsədilə növbəti ictimai dinləmə keçirilib.***

"Unikal" xəbər verir ki, agentliyin konfrans zalında təşkil olunan tədbirdə "SmartDom" MMC, "Qismət - M House" MMC, "VİALON" MMC və "Kristal Bakı" ASC şirkətlərinin təmsilçiləri, həmçinin dövlət qurumlarının nümayəndələri, ekoloqlar, Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında İctimai Şuranın üzvləri, jurnalistlər və digər maraqlı tərəflər iştirak edib.

İctimai dinləmədə Agentliyə təqdim olunan hər bir layihənin ətraf mühitə təsiri, kompensasiya mexanizmləri müzakirə olunub, ictimaiyyət üçün maraq kəsb edən məsələlərə diqqət yetirilib, xüsusilə mövcud yaşıllıqların landşaft elementi kimi qorunması müzakirə olunub və yekun rəyin qəbul edilməsi üçün maraqlı tərəflərin fikirləri dinlənilib.

Agentlik rəsmiləri tərəfindən bildirilib ki, layihələrə ekspertiza rəyi verilən zaman ekoloji normalara riayət olunması, ətraf mühitin mühafizəsi, mövcud yaşıllıqların qorunması və daha da artırılması əsas götürülür.

Tədbirdə tikinti və infrastruktur layihələrinin icrası zamanı təbiətdən, yeraltı sulardan, mineral xammal ehtiyatlarından və yerüstü sərvətlərdən səmərəli istifadə edilməsi, onların bərpası və mühafizəsi, bioloji müxtəlifliyin və yaşıllıq balansının qorunub saxlanılmasının xüsusi əhəmiyyəti qeyd olunub, eyni zamanda bənzər layihələrdə tətbiq olunan təcrübə barədə fikir mübadiləsi aparılıb və qarşıya çıxan problemlərdən danışılıb.

Təqdimat edilən layihələrdən olan Bakı şəhəri, Yasamal rayonu, Xarici dairəvi avtomobil yolunun kənarında, Qanlı gölün şimal-qərb hissəsində inşa olunacaq və böyük həcmdə yaşıllıqları əhatə edəcək yaşayış kompleksi diqqəti çəkib. Belə ki, kompleksin tərkibində 6 hektarlıq "Şamlıq park" və Qanlı göl təmizləndikdən sonra 32 hektarlıq su hövzəsi ətrafı bulvar tikiləcək. Ekspertlər bu layihənin Bakının ekoloji vəziyyətinə müsbət təsir göstərəcəyi qənaətinə gəlib.

Qarşılıqlı dialoq şəklində keçən ictimai dinləmə sahibkarlar və ictimaiyyət nümayəndələri tərəfindən yüksək qiymətləndirilib və belə tədbirlərə gələcəkdə də böyük ehtiyacın olduğu vurğulanıb.

# Akif Çovdarovun müsadirə olunmuş əmlakları geri qaytarıldı

***Ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyinin (MTN) Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin sabiq rəisi, general-mayor Akif Çovdarovun cinayət işi ilə bağlı müsadirə olunmuş əmlaklar geri qaytarılıb.***

"Unikal" apa-ya istinadən xəbər verir ki, bu barədə Bakı Apellyasiya Məhkəməsi qərar qəbul edib. Hakim Habil Məmmədovun sədrlik etdiyi hakimlər heyəti belə qənaətə gəlib ki, Bakı Hərbi Məhkəməsinin hökmü ilə müsadirə olunmuş əmlaklar sahiblərinə geri qaytarılmalıdır.

Bazar dəyəri 30 milyon manata yaxın qiymətləndirilmiş sözügedən əmlaklar Akif Çovdarovun ailə üzvlərinə məxsusdur.

Həmin əmlakların siyahısını təqdim edirik: "Bakı şəhəri Nizami rayonu Naxçıvanski küçəsi 50 ünvanında yerləşən ticarət və xidmət sahəsindən (meyvə-tərəvəz bazarı) ibarət əmlak kompleksi (dəyəri 8.100.000 manat), Binəqədi rayonu Biləcəri qəsəbəsində yerləşən 560 kvadrat metr torpaq sahəsi (dəyəri 95.000 manat), Binəqədi rayonu Biləcəri qəsəbəsində yerləşən 0,06 hektar torpaq sahəsi (dəyəri 300.000 manat), Yasamal rayonu M. Xiyabani küçəsi 5-də yerləşən 250 kvadrat metr qeyri-yaşayış sahəsi (dəyəri 231.500 manat), Xətai rayonu M. Hadi küçəsində yerləşən binanın 147,4 kvadrat metr sahəyə malik 179 saylı mənzili (dəyəri 125.000 manat), Nəsimi rayonu, Bülbül prospekti ev 65, mənzil 38 (dəyəri 483.000 manat), Abşeron rayonu, Novxanı kəndində yerləşən 0,1073 ha torpaq sahəsi (dəyəri 86.000 manat), Abşeron rayonu, Novxanı kəndində yerləşən 0,0886 ha torpaq sahəsi(dəyəri 71.000 manat), Abşeron rayonu Novxanı kəndi Novxanı bağlar massivində yerləşən 1276 a nömrəli bağ evindəki 0,18 ha torpaq sahəsi və 222,31 kvadrat metr fərdi yaşayış evi (dəyəri 808.000 manat), Abşeron rayonu Novxanı kəndindəki 0,11 ha torpaq sahəsi və onun üzərindəki 241,9 kvadrat metr bağ evi(dəyəri 700.000 manat), Abşeron rayonu, Saray kəndində yerləşən 0,15 ha torpaq sahəsi (dəyəri 60.000 manat), Abşeron rayonu Saray kəndində yerləşən 0,6754 ha torpaq sahəsi (dəyəri 203.000 manat), Abşeron rayonu Saray kəndində yerləşən 0,17 ha torpaq sahəsi (dəyəri 59.500 manat), Xızı rayonu, Qızılqazma kəndində yerləşən 2 hektar torpaq sahəsi (dəyəri 400.000 manat), Qəbələ rayonu Nohurqışlaq kəndində yerləşən 2 ədəd 0,075 hektar torpaq sahələri (hər birinin dəyəri 15.000 manat), Şamaxı rayonu Nağaraxana kəndində yerləşən 0,13739 hektar torpaq sahəsi və onun üzərində yerləşən 250,1 kv.m, 264,6 kv.m, 250,1 kv.m. sahələrində 3 ədəd əsas tikili, 69,4 kv.m, 117,3 kv.m. sahələrində 2 ədəd köməkçi tikili (dəyəri 750.000 manat), Abşeron rayonu, Masazır kəndində 2,675 ha, 3,0 ha, 0,0275 ha, 0,3238 ha, 0,0828 ha, 3,12 ha, 0,0821 ha torpaq sahələrinin üzərində yerləşən tikililərin (dəyəri 4.310.000 manat), həmin ünvanda 0,2 hektar torpaq sahəsinin üzərində olan tikili (dəyəri 2.470.000 manat), Kürdəmir rayonu, Yeni Şıxımlı kəndində yerləşən 2,5 hektar torpaq sahəsi(dəyəri 1.800 manat), Kürdəmir rayonu, Qurdbayram kəndində yerləşən 100 hektar torpaq sahəsi (dəyəri 60.000 manat), Kürdəmir rayonu, Mollakənd kəndində yerləşən 69 ha torpaq sahəsində olan göllər, 106 kv.m, 24,8 kv.m, 318,3 kv.m, 28,8 kv.m, 16,7 kv.m, 96 kv.m, 28,8 kv.m. ümumi sahədən ibarət tikililər, 40,5 kv.m. tikintialtı sahəli talvar və 218,6 kv.m. tikintialtı sahəli hovuz (dəyəri 646.000 manat), Kürdəmir şəhəri "Ərşəli yeri" adlanan ərazidə yerləşən 100 hektar torpaq sahəsinin üzərində yerləşən 93,1 kv.metr tikili, 24.000 nar kolu (dəyəri 208.600 manat), Bakı şəhəri Nəsimi rayonu Seyidzadə 16 b küçəsi ilə Cavadxan küçəsinin kəsişməsində yerləşən 23 kvadrat metr, 24,6 kvadrat metr, 18,60 kvadrat metr, 13,8 kvadrat metr, 16,0 kvadrat metrdən ibarət qarajlar (dəyəri 96.000 manat), Binəqədi rayonu 7-ci mikrorayon, Xarici dairəvi küçəsi 10 saylı yaşayış binasının yanında yerləşən 4941 kvadrat metr sahəyə malik 6 mərtəbəli, zirzəmili və mansardlı binanın (dəyəri 3.178.000 manat), Bakı şəhəri Nəsimi rayonu Cavadxan küçəsi 62 nömrəli binanın yaxınlığında yerləşən zirzəmili, mansardlı 7 mərtəbəli qeyri-yaşayış binası(dəyəri 4.500.000 manat), Bakı şəhəri Adil Məmmədov küçəsi 143, mənzil 142. (dəyəri 145.000 manat)".

Bakı Apellyasiya Möhkəməsinin qərarı ilə Akif Çovdarovla birgə ittiham olunmuş Milli Təhlükəsizlik Nazirliyinin (MTN) Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin



keçmiş əməkdaşı polkovnik Səlim Məmmədovun da əmlakları xüsusi müsadirədən azad olunub.

Xatırladaq ki, Akif Çovdarov və Səlim Məmmədov 2015-ci ildə həbs edilib.

Onlara qarşı Cinayət Məcəlləsinin 145.3 (Qanunsuz azadlıqdan məhrum etmə ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda), 179.3.1, 179.3.2 (Mənimsəmə və ya israf etmə mütəşəkkil dəstə tərəfindən külli miqdarda törədildikdə), 181.3.1, 181.3.2 (Quldurluq - mütəşəkkil dəstə tərəfindən külli miqdarda əmlak əldə etmək məqsədi ilə törədildikdə), 182.3.1, 182.3.2 (Hədə-qorxu ilə tələb etmə - külli miqdarda əmlak əldə etmək məqsədi ilə törədildikdə ), 228.4 (Qanunsuz olaraq qaz silahını, soyuq silahı, o cümlədən soyuq atıcı silahı əldə etmə, satma və ya gəzdirmə), 302.1, 302.2 (Gizli qaydada informasiya alınması üçün nəzərdə tutulmuş texniki vasitələrdən istifadə edilməklə əməliyyat-axtarış fəaliyyəti haqqında qanunvericiliyi pozma), 311.3.1, 311.3.2, 311.3.3, 311.3.4 (Rüşvət alma qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən hədə-qorxu tətbiq olunmaqla külli miqdarda və təkrar törədildikdə), 313 (Vəzifə saxtakarlığı), 341.2.1, 341.2.2 və 341.2.3-cü (Bir qrup şəxs tərəfindən silah tətbiq olunmaqla hakimiyyətdən sui-istifadə etmə, hakimiyyət həddini aşma və ya hakimiyyətdən istifadə etməmə ağır nəticələrə səbəb olduqda) maddələri ilə ittiham irəli sürülüb.

Bakı Hərbi Məhkəməsinin hökmü ilə 12 il, Səlim Məmmədov isə 11 il müddətinə azadlıqdan məhrum edilib.

Prezident İlham Əliyevin 2020-ci ildə imzaladığı əfv sərəncamı ilə Akif Çovdarov, 2022-ci ilə imzaladığı əfv sərəncamı ilə Səlim Məmmədov azadlığa buraxılıb.

2021-ci ilin dekabr ayında Ali Məhkəmə Akif Çovdarov və Səlim Məmmədovun müsadirə olunmuş əmlakları ilə bağlı qərar elan edib. Qərara əsasən iş yenidən araşdırılması üçün Bakı Apellyasiya Məhkəməsinə qaytarılıb.

# 5.3.17. ekologiya və ətraf mühitin mühafizəsi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Talan edilən sərvətimizlə bağlı monitorinqi kim aparmalı?

## Ekoloq Fikrət Cəfərov: "Qızıl yataqlarımızın qanunsuz istismarına qarşı monitorinq yalnız Azərbaycanın birgə iştirakı ilə mümkündür"

***Azərbaycan ekoaktivistlərinin və QHT nümayəndələrinin Laçın yolunda "Qızılbulaq" mis-qızıl və "Dəmirli" yatağının qanunsuz istismarı ilə bağlı apardıqları etiraz aksiyası səmərə verməkdədir. Artıq Azərbaycanın Qarabağ bölgəsində qızıl və mis-molibden yataqlarının istismarı dayandırılıb.***

APA-nın xəbərinə görə, yataqları qanunsuz istismar edən "Base Metals" şirkəti fəaliyyətini dayandırdığını açıqlayıb. Şirkətin yaydığı məlumatda azərbaycanlı ekoaktivistlərin Laçın-Xankəndi yolunda keçirdiyi aksiya ilə əlaqədar şirkət rəhbərliyinin mədən fəaliyyətlərini müvəqqəti dayandırdığı və ekoloji ekspertizanın keçirilməsi üçün beynəlxalq təşkilatlara müraciət etmək qərarına gəldiyi bildirilib. Qeyd olunub ki, BMT-nin müvafiq strukturlarına və digər aidiyyəti təşkilatlara qısa müddətdə ekspertizanın təşkil edilməsi üçün müraciət edilib. Məlumat üçün bildirək ki, Qarabağda faydalı qazıntı yataqlarının qanunsuz istismarını həyata keçirən "Base Metals" şirkəti ermənilərin "Vallex Group" konqlomeratının törəməsidir və Xankəndidəki qondarma "hökumətin" əsas "vergi" ödəyicilərindən biridir. Lixtenşteyndə qeydiyyatdan keçmiş "Base Metals" şirkəti 2002-ci ildə Heyvalı kəndi yaxınlığındakı "Qızılbulaq" mis-qızıl və "Dəmirli" yatağının qanunsuz istismarını həyata keçirib. "Vallex Group"a isə Ermənistanın keçmiş Prezidenti Serj Sarkisyanın şəxsən "vətənə xidmətə görə" medalı ilə mükafatlandırdığı Rusiya vətəndaşı olan erməni biznesmen Valeri Mezhlumyan sədrlik edir. İndi bu şirkətin Azərbaycanın torpaqlarında qızıl və mis yataqlarını qanunsuz istismarının ardınca beynəlxalq ekspertləri əraziyə dəvət etməsi Azərbaycan ictimaiyyəti tərəfindən birmənalı qarşılanmır. Azərbaycanın monitorinq qrupu "Qızılbulaq" mis-qızıl və "Dəmirli" yatağının monitorinqi üçün işçi qrup yaratsa da, bugünədək Rusiya sülhməramlıları həmin əraziyə buraxmır.



Ekoloq Fikrət Cəfərov deyir ki, BMT-nin müvafiq qurumlarını bu işə cəlb etmək yalnız Azərbaycanın hüququdur. Ekspertin sözlərinə görə, "Qızılbulaq" mis-qızıl və "Dəmirli" yatağı Azərbaycanın suveren ərazisində yerləşir. Xankəndində yaşayan erməni icması isə Azərbaycan dövlətinin vətəndaşları sayılır. Belə halda şirkətin Azərbaycan dövlətini qoyub başqa xarici beynəlxalq təşkilatlara yataqlarda ekspertiza üçün müraciət etməsi siyasi oyundur. Onun sözlərinə görə, bu monitorinq yalnız Azərbaycanın təşkilatçılığı ilə BMT nümayəndələri ilə birgə təşkil edilə bilər: "Bunun üçün gərək Azərbaycan BMT-yə dəvət göndərsin. Əks halda BMT-nin müvafiq qurumlarının gəlib Azərbaycan ərazisində qanunsuz istismar olunan yataqda monitorinq aparması yolverilməzdir. Bu Azərbaycanın ərazi bütövlüyünə də hörmətsizlikdir".

Həmsöhbətimiz deyir ki, "Qızılbulaq" mis-qızıl və "Dəmirli" yatağı 30 ildir ki, qanunsuz istismar olunur. Bunun üçün Azərbaycanın Baş Prokurorluğu öncə həmin şirkətə qarşı cinayət işi açmalıdır. Çünki, yataq Azərbaycan xalqının sərvətidir. Şirkət xalqımızın sərvətini taladığı üçün qanun qarşısında cavab verməli, Azərbaycana vurduğu ziyanı geri ödəməlidir. Bundan əlavə, şirkətin ekologiyamıza vurduğu ziyan da dəqiqləşdirilməlidir. Qızıl yataqlarının istismarı zamanı ölkəmizə təkcə maddi ziyan dəymir. Qızıl hasilatı zamanı atılan zərərli maddələr suya, torpağa keçir. Bu ekoloji probleme səbəb olur. Biz hələ bilmirik ki, bizim yataqlardan qızıl hansı üsul, hansı texnologiya ilə çıxardılır. Bunun qarşısı mütləq alınmalıdır".

F. Cəfərov deyir ki, BMT yataqlarda ekspertiza təklifinə Azərbaycan tərəfinin dəvəti olarsa qatılmalıdır. Əks halda bu beynəlxalq münasibətlərə mənfi təsir edəcək.

Qeyd edək ki, ərazilərimiz işğaldan azad olunduqdan sonra "Vejnəli", "Söyüdlü", "Qızılbulaq" və "Dəmirli" iri filiz yataqlarının istismarını aparan xarici şirkətlər ölkədən uzaqlaşdırılmışdı. Lakin son zamanlar müvafiq qurumların verdiyi məlumata görə, müəyyən edilib ki, əsasən "Dəmirli" mis-porfir yatağında erməni işğalçı rejimi yenidən fəaliyyətini bərpa edib. "Qızılbulaq" Müqavilə Sahəsi Rusiya sülhməramlılarının Qarabağda nəzarət etdikləri Ağdərə ərazisində yerləşir. Müqavilə sahəsi "Dəmirli" mis-molibden yatağının qızılla zəngin olan hissəsidir. Şirkətin saytında qeyd olunur ki, buradan ermənilər tərəfindən ildə 35 min unsiyaya qədər (təxminən 1 ton) qızıl hasil edildiyinə dair ehtimallar var. Məlumat üçün bildirək ki, Azərbaycanda qızıl, gümüş və mis hasilatı ilə məşğul olan Böyük Britaniyanın "Anglo-Asian Mining Plc." şirkəti "Qızılbulaq" yatağından qanunsuz istifadə ilə bağlı məhkəməyə müraciət edə bilər. "Anglo-Asian Mining Plc." şirkətinin maliyyə direktoru İlham Xəlilov deyib ki, məsələ ilə bağlı mütləq şəkildə beynəlxalq məhkəməyə müraciət edilməsi nəzərdə tutulur ."Anglo-Asian Mining" Azərbaycanda 1997-ci il avqustun 21-də imzalanmış PSA (Production Sharing Agreement/Hasilatın Pay Bölgüsü) tipli müqavilə çərçivəsində hasilatla məşğul olur. "Qızılbulaq" da müqaviləyə daxil edilən yataqlardan biridir.

Xatırladaq ki, 2022-ci ilin dekabrın 3-də və 7-də Rusiya sülhməramlı kontingentinin komandanlığı ilə aparılmış müzakirələrin nəticəsi olaraq Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti və "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin mütəxəssislərindən ibarət heyət Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarı, bundan irəli gələn ekoloji və digər fəsadlarla bağlı ilkin monitorinq aparmalı idi. Lakin sülhməramlıların hərəkətsizliyi ucbatından monitorinq baş tutmayıb.

***Gülayə Mecid***

Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.



# "Media Menecmenti" təlim proqramının bağlanış mərasimi keçirilib

***Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi və ADA Universitetinin İnkişaf və Diplomatiya İnstitutunun birgə təşkilatçılığı ilə 3 moduldan ibarət olan "Media Menecmenti" təlim proqramının üçüncü modulu keçirilib.***

"Unikal" xəbər verir ki, "Audiovizual media menecmenti" mövzusunda keçirilən üçüncü modulda Litvanın Baş nazirinin mədəniyyət üzrə ictimai müşaviri, inkişaf və innovasiyaya verdiyi töhfəyə görə iki dəfə regionun ən yaxşı marketinq direktorlarından biri seçilmiş Ornela Ramasauskaite çıxış edib. O, iştirakçılara "Audiovizual mediada tendensiyalar, istehlakçılar və texnoloji yeniliklər", "Audiovizual media subyektlərinin idarə olunması: Ənənəvi və müasir dövrdə üsullar və alətlər", "Effektiv proqram siyasətinin qurulması" və s. kimi mövzularda təlim keçib, qeyd olunan istiqamətlərdə geniş fikir mübadiləsi aparılıb.

"Media Menecmenti" təlim proqramının bağlanış mərasimində çıxış edən ADA Universitetinin prorektoru Fariz İsmayılzadə Medianın İnkişafı Agentliyi ilə əməkdaşlıq təcrübəsinin uğurunu məmnunluqla qeyd edib. Vurğulayıb ki, bu təlimlər media sahəsində yeni trendin başlanğıcına, keyfiyyətli kontent yaradılmasına, jurnalistlərin peşəkar inkişafına töhfə verəcək.

Daha sonra çıxış edən Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov jurnalistlərin yaradıcı-innovativ potensialını stimullaşdırmaq, xarici təcrübəyə əsaslanan nəzəri bilikləri artırmaq və yerli mediada tətbiqini reallaşdırmaq, bu istiqamətdə təcrübə mübadiləsini həyata keçirmək üçün xarici mütəxəssislərin cəlb edilməsiylə təlimlərin keçirilməsinin əhəmiyyətindən bəhs edib.Sonda təlim iştirakçılarına sertifikatlar təqdim olunub. 60-dan çox media menecerinin iştirakı ilə keçirilən "Media Menecmenti" təlim proqramının əsas məqsədi ənənəvi və rəqəmsal media ilə işləyərək daha keyfiyyətli məzmunun yaradılmasına, jurnalistika sahəsində yaranan yeni imkanların və mediada yeni tendensiyaların öyrənilməsinə, rəqəmsal media sahəsində peşəkar vərdişlərin inkişaf etdirilməsinə töhfə verilməsidir.

# Azərbaycanda COVID-19-la bağlı son durum

***"Soyuq ayların başlamasına baxmayaraq koronavirusa yoluxma sayında sıçrayışlı artımın olmaması arzu olunan haldır və epidemioloji durumun nəzarət altında olduğunu deməyə əsas verir".***

"Unikal" xəbər verir ki, bunu "Report" açıqlamasında Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, infeksionist Təyyar Eyvazov deyib.

O bildirib ki, son dövrlərdə koronavirusa yeni yoluxma hallarının minimal rəqəmlərdə dalğalandığı müşahidə edilir: "Aktiv xəstə sayı da müəyyən intervalda artıb-azalır. Soyuq ayların başlamasına baxmayaraq yoluxma sayında sıçrayışlı artımın olmaması arzu olunan haldır və epidemioloji durumun nəzarət altında olduğunu deməyə əsas verir".

# Atmosfer havasının keyfiyyətinin yaxşılaşdırılması ilə bağlı Dövlət Proqramı hazırlanır



***Qarşıdakı dövrlərdə "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədində yüksək keyfiyyətli ekoloji mühit və yaşıl enerji məkanı adlı iki məqsədin reallaşdırılması nəzərdə tutulur.***

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Ekoloji Siyasət Şöbəsinin müdiri Faiq Mütəllimov "Unikal"a bildirib ki, Milli Prioritetlər sənədinə əsasən hazırlanan "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda əks olunan atmosfer havasının keyfiyyətinin yaxşılaşdırılmasına və iqlim dəyişmələri ilə bağlı hədəflərə nail olmaq məqsədilə "Atmosfer havasının keyfiyyətinin yaxşılaşdırılması və iqlim dəyişmələrinə dair Dövlət Proqramı"nın hazırlanmasına başlanıb.

"Dövlət Proqramının qəbul edilməsi atmosfer havasının keyfiyyətinin yaxşılaşdırılmasına, həmçinin iqlim dəyişmələri ilə bağlı qlobal çağırışların milli səviyyədə icrasını təmin etmək üçün vahid proqram əsasında sistemli tədbirlərin həyata keçirilməsinə şərait yaradacaq."

F.Mütəllimovun sözlərinə görə, Dövlət Proqramında bu sahələr üzrə qanunvericiliyin qabaqcıl beynəlxalq təcrübəyə uyğun təkmilləşdirilməsi, atmosfer havasına mənfi təsirlərin azaldılması, monitorinq və nəzarət şəbəkəsinin genişləndirilməsi, dəqiq və etibarlı məlumat sisteminin qurulması, iqlim dəyişmələrinə adaptasiya potensialının gücləndirilməsi, atmosferə atılan tullantıların idarə olunması sisteminin inkişaf etdirilməsi, ictimaiyyətin məlumatlandırılması və maarifləndirmə kimi prioritet istiqamətlər müəyyən edilib.

# Bayramda süni qiymət artımı edənlər cəzalandırılacaq - Xəbərdarlıq

***İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti bayramqabağı əhalinin istehlak səbətində əsas yer tutan məhsullara tələbatın artması fonunda qiymət manipulyasiyalarına yol verilməməsi üçün sahibkarlıq subyektlərinə müraciət edib.***



"Unikal"ın məlumatına görə, müraciətdə bildirilib ki, sahibkarlıq subyektləri təklif etdikləri mal və xidmətlərin qiymətləri barədə istehlakçılara dəqiq və düzgün məlumat verməlidirlər.

Satışda olan bütün malların üzərində malın adı, növü, qiyməti və doldurulma tarixi göstərilməklə, dəqiq tərtib edilmiş qiymət kağızı olmalıdır. Məhsulun satış qiyməti məhz üzərində (piştaxta və yaxud vitrinlərdə) göstərilən qiymət olduğundan istehlakçılarla hesablaşmalar həmin qiymətə uyğun aparılmalıdır. Ödəniş edərkən istehlakçıdan məhsulun üzərində göstərilən qiymətdən fərqli qiymətlə ödənişin tələb edilməsi istehlakçıların hüquqlarının pozulmasıdır. Bununla əlaqədar İnzibati Xətalar Məcəlləsində inzibati məsuliyyət tədbiri nəzərdə tutulub. Mal satan və ya əhaliyə xidmət göstərən şəxslər tərəfindən malın (xidmətin) ölçüsünə, çəkisinə, hesabına, habelə istehlak xüsusiyyətinə və ya keyfiyyətinə dair istehlakçıların az miqdarda aldadılmasına görə fiziki şəxslər 350-500 manat, vəzifəli şəxslər 1500-2000 manat, hüquqi şəxslər 4000-6000 manat inzibati qaydada cərimə edilir.

"Bayramqabağı alış-verişin daha da artacağını nəzərə alaraq, istehlakçılara diqqətli olmağı, sahibkarlara isə belə hallara yol verməməyi tövsiyə edirik. İstehlakçılar malların üzərində göstərilən qiymətdən fərqli qiymətə satılması, eləcə də digər qanun pozuntusu halları ilə rastlaşdıqda 195-1 Çağrı Mərkəzi, rəsmi internet səhifəsi (https://competition.gov.az/az/page/muraciet/erize-sikayet-teklif) və elektron poçt (office@competition.gov.az) vasitəsilə Dövlət Xidmətinə müraciət edə bilərlər", - deyə qurum bəyan edib.

# Şəhid ailələri və qazilərə pulsuz hüquqi yardım göstərildi

***"28 dekabr-Vəkil günü" peşə bayramı ilə əlaqədar "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyi və Vəkillər Kollegiyasının birgə təşkilatçılığı ilə İctimai Birliyin ofisində şəhid ailələri və qazilərə hüquqi yardım kampaniyası təşkil olunub.***

"Unikal" xəbər verir ki, Vəkillər Kollegiyasının tanınmış vəkilləri tərəfindən şəhid ailələri və qazilərin problemləri dinlənilib, hüquqi məsləhətlər verilib və hüquqi yardım göstərilib.

Görüşdə iştirak edə bilməyən şəhid ailələri və qazilərin onlayn olaraq görüşü təmin edilib və onlara hüquqi yardım göstərilib.

# Vətəndaşlıq verilməsi ən çətin və asan ölkələr - SİYAHI

***İkinci pasporta sahib olmaq şəxsi və mədəni inkişaf, eləcə də maliyyə gəlirləri və daha çox şeylər baxımından fayda verə bilər. Ancaq başqa ölkədə işləmək hüququ ölkədən-ölkəyə çox dəyişir.***

"Unikal" vətəndaşlıq almağın ən çətin və asan olduğu ölkələri təqdim edir:



Böyük Britaniya vətəndaşı olmaq istəyən namizədlər ingilis dili testlərində adekvat bal toplamalı və müraciət zamanı ən azı beş il ölkədə yaşamalıdırlar. Böyük Britaniya vətəndaşı olmaq dünyanın ən bahalı və çətin vətəndaşlıq prosedurlarından biridir.

**9. Yaponiya**

Yaponiya vətəndaşı olmaq dünyanın ən yaxşı pasportuna sahib olmaq kimi bir çox üstünlüklərə malikdir, lakin proses asan deyil. Yaponiya vətəndaşı olmaq istəyən şəxslər Yaponiyaya əlyazma məktub yazaraq nə üçün ölkə vətəndaşı olmaq istədiklərini izah etməlidirlər. Bundan sonra namizədlər ölkədə yaşayış xərclərini necə qarşılayacaqlarını sübut etməli və adlarını dəyişdirməlidirlər.

**8. Çin**

Çin qanunları əcnəbilərə ölkədə yaşayan qohumları varsa Çin vətəndaşı olmağa icazə verir. Əgər namizədin Çində yaşayan qohumu yoxdursa, ölkə vətəndaşı olmaq çox çətindir.

**7. İsveçrə**

İsveçrə vətəndaşı olmaq üçün namizədin ölkədə 10 il yaşaması və C tipli iş icazəsi olmalıdır. C tipi iş icazəsi əcnəbilərə ölkədə yaşamaq və işləmək hüququ verir.

**6. BƏƏ**

Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) vətəndaşı olmaq üçün əcnəbilər ölkədə qanuni olaraq ən azı 30 il yaşamalıdırlar. Bununla belə, Oman, Qətər və Bəhreyndən olan ərəblər BƏƏ-də 3 il, digər ərəb ölkələrinin vətəndaşları isə 7 il yaşadıqdan sonra vətəndaşlıq üçün müraciət edə bilərlər.

**5. Lixtenşteyn**

Avropada yerləşən Lixtenşteyn vətəndaşı olmaq istəyənlər bu ölkədə ən azı 30 il yaşamalıdırlar. Lixtenşteyn vətəndaşı ilə evli olan insanlar üçün bu müddət 5 ilə endirilir.

**4. Küveyt**

Dünyada vətəndaşlıq verilməsi ən çətin və asan ölkələr hansılardır? - 7

Küveyt vətəndaşı olmaq istəyən əcnəbilər ölkədə ən azı 20 il, ərəb ölkələrindən gələn əcnəbilər isə ən azı 15 il ölkədə yaşamalıdırlar. Bununla belə, vətəndaşlığa müraciət edənlərdən ən azı son beş il ərzində müsəlman olmaları və ərəb dilini mükəmməl bilmələri tələb olunur.

**3. Qətər**

Dünyada vətəndaşlıq verilməsi ən çətin və asan ölkələr hansılardır? - 8

Qətərdə ən azı 25 il yaşayanlar bu ölkədə vətəndaşlıq üçün müraciət edə bilərlər. Bununla belə, vətəndaşlıq üçün müraciət edənlər iki aydan çox Qətəri tərk etməməlidirlər. Qətər də hər il təxminən 50 nəfəri vətəndaş kimi qəbul edir.

**2. Butan**

Dünyada vətəndaşlıq verilməsi ən çətin və asan ölkələr hansılardır? - 9

Butan vətəndaşı olmaq istəyənlər ölkədə ən azı 20 il yaşamalı və Butan Kralı haqqında heç bir mənfi rəyi olmamalıdır.

**1. Vatikan**

Yalnız ölkədə və ya Romada kardinal kimi çalışan və ya Katolik Kilsəsinin rəsmi işçisi kimi xidmət edənlər Vatikanda vətəndaşlıq ala bilərlər.

**11. Avstraliya**

2021-ci ildə aparılan sorğuda Avstraliya əcnəbilər üçün ən yaşana bilən ölkələr sırasında olub. Avstraliya vətəndaşı olmaq üçün yaşayış icazəniz olmalı və Avstraliyada dörd il yaşamalısınız.

**12. İrlandiya**

İrlandiya vətəndaşı olmaq istəyənlər ölkədə 5 il yaşamalı və iş icazəsi almalıdırlar.

**13. Sinqapur**

Sinqapur ləzzətli yeməkləri və müasir şəhər dizaynı ilə bir çox insanı özünə cəlb edir. Sinqapur vətəndaşı olmaq üçün sinqapurlu ilə evlənmək, iş icazəsinin olması, ən azı iki il ölkədə yaşamaq və ya biznes qurmaq lazımdır. Vətəndaşlıq üçün müraciət edən tələbələr üç ildən çox Sinqapurda yaşamalı və ən azı bir milli test və ya proqramdan keçməlidirlər.

**14. Meksika**

Əlverişli yaşayış dəyəri, müxtəliflik və əlçatanlıq Meksikanı əcnəbilər arasında sevimli edir. Meksika vətəndaşı olmaq üçün iki ildən beş ilədək yaşayış və ispan dili testlərindən keçmək lazımdır.

**15. Kanada**

Kanada vətəndaşı olmaq üçün daimi rezident olmalı, son beş il ərzində ölkədə yaşamalı, vergiləri bəyan etməli, vətəndaşlıq və dil testlərindən keçməlisiniz.

***Hazırladı:***
***Gülayə Mecid***

# Nizam Osmanov Kəlbəcərə getdi - Nazirin tapşırıqlarını hərbçilərə çatdırdı



***Müdafiə nazirinin müavini, Maddi-Texniki Təminat Baş İdarəsinin rəisi general-leytenant Nizam Osmanov Kəlbəcər rayonu ərazisində yeni istifadəyə verilən hərbi infrastruktura baxış keçirib.***

Bu barədə "Unikal"a Müdafiə Nazirliyindən məlumat verilib. Bildirilib ki, Hərbi Polisin tabeliyindəki bölmənin yeni istifadəyə verilmiş yerləşmə məntəqəsi Müdafiə Nazirliyinin inşaat taborunun güc və vasitələri ilə müasir tələblər nəzərə alınmaqla inşa olunub.

Yerləşmə məntəqəsindəki qərargah, inzibati və xidməti iş otaqları mərkəzləşdirilmiş istilik sistemi, lazımi mebel və avadanlıqla təmin edilib, işıq, su və kommunikasiya xətləri çəkilib. Ətrafda abadlıq işləri aparılıb. Burada silah otağı, yataqxana, yeməkxana, hamam-sanitar qovşağı, isitmə sobaları, eləcə də avtomobil texnikasının saxlanması üçün park mövcuddur.

Sonra şəxsi heyətlə görüşən general-leytenant N.Osmanov onların qayğıları ilə maraqlanıb, hərbi qulluqçuları qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə general-polkovnik Zakir Həsənovun adından təbrik edərək xidmətlərində uğurlar arzulayıb və bayram hədiyyələri təqdim edib.

Daha sonra müdafiə nazirinin müavinləri - Maddi-Texniki Təminat Baş İdarəsinin rəisi general-leytenant Nizam Osmanov və Quru Qoşunları komandanı general-leytenant Ənvər Əfəndiyev Kəlbəcər rayonu ərazisində yeni istifadəyə verilən birləşmiş anbarlarda olublar.

Məruzə edilib ki, yeni inşa edilən birləşmiş anbarlar vasitəsilə Azərbaycan Ordusunun Kəlbəcər və Laçın rayonları ərazilərində dislokasiya olunan bütün bölmələrinin təminat və təchizatı fasiləsiz həyata keçiriləcək.

Burada mövcud olan qərargah binası, yataqxana, inzibati və xidməti otaqlar bütün zəruri avadanlıqlarla tam təchiz edilib. Fasiləsiz elektrik enerjisinin təminatı üçün generatorlar quraşdırılıb. Ərazidə abadlıq işləri aparılıb, ağaclar əkilib.

Birləşmiş anbarlarda mərkəzləşdirilmiş istilik sisteminin təmin edilməsi məqsədilə qazanxana kompleksi, hərbi hissələrə təminat daşınmasında istifadə edilən yük avtomobillərinin, eləcə də yanğınsöndürmə avtomobilllərinin saxlanması üçün park mövcuddur.

Həmçinin ərazidə qonaq evi də inşa edilib ki, buradakı istirahət otaqları da müasir tələblərə cavab verən bütün növ mebel və avadanlıqla təmin olunub.

Sonda hərbi qulluqçuların maddi-texniki təminatının və sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması istiqamətində müdafiə nazirinin müvafiq tapşırıqları aidiyyəti şəxslərə çatdırılıb.

# Daha iki xəstəxana Kliniki Tibbi Mərkəzin tabeliyinə verildi

***K.Y.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutunun tərkibinə daxil olan Uşaq Nevroloji Xəstəxanası və Uşaq Bərpa Mərkəzi bundan sonra "Kliniki Tibbi Mərkəz" publik hüquqi şəxsin nəzdində fəaliyyət göstərəcək.***

"Unikal" xəbər verir ki, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) İcraçı direktoru Vüqar Qurbanov tərəfindən "Bəzi tibb müəssisələrinin ştat və strukturuna əlavə və dəyişikliklərin edilməsi haqqında" əmr imzalanıb.

Əmrə əsasən daha iki xəstəxana Kliniki Tibbi Mərkəzin strukturuna daxil edilib.

Məlumat üçün bildirək ki, Uşaq Nevroloji Xəstəxanasında 10 şöbə və 80 nəfər tibb personalı




fəaliyyət göstərir. Tibb müəssisəsində sinir sistemi xəstəlikləri və xəsarətləri olan uşaqlar müalicə edilir.

Uşaq Bərpa Mərkəzində isə 5 şöbə və 96 tibb personalı fəaliyyət göstərir. Uşaq Bərpa Mərkəzi ölkədə uşaq reabilitasiyasının və sağlamlıq imkanları məhdud uşaqların inkişafına çalışan tibb müəssisəsidir. Mərkəz uşaqlar arasında inkişafın ləngiməsi hallarının erkən aşkarlanması, vaxtında müdaxilə olunması, xroniki xəstəliklərin, dayaq-hərəkət sistemi xəstəliklərinin müalicəsini təmin edir.

Qeyd edək ki, TƏBİB-in İdarə Heyətinin 27.04.2021-ci il tarixli 11 nömrəli qərarına əsasən "Kliniki Tibbi Mərkəz" publik hüquqi şəxs Ş.Ələsgərova adına 5 saylı Kliniki Doğum Evi, Ə.F.Qarayev adına 2 saylı Klinik Uşaq Xəstəxanası və 3 saylı Uşaq Xəstəxanasının tabeliyinə verilməsi yolu ilə yenidən təşkil olunub.

# SİMA mobil tətbiqinin qeydiyyat prosesi yenilənib

***Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində fəaliyyət göstərən "AzInTelecom" MMC tərəfindən yaradılan SİMA yeni nəsil rəqəmsal imzanın mobil tətbiqi təkmilləşdirilərək yeni funksionallıqlar əlavə edilib.***

"Unikal" nazirliyin yaydığı məlumata istinadən xəbər verir ki, yenilənmiş mobil tətbiqdə imzanın əldə edilməsi üçün həyata keçirilən qeydiyyat prosesi daha əlçatan olub. Əvvəlki versiyada tələb edilən vətəndaşın başını dairə ətrafında fırlatması prosesi ləğv edilib. Həmçinin üz tanıma və canlılıq testləri birləşdirilərək bir mərhələdə təqdim olunur.

Təkmilləşdirilmiş qeydiyyat prosesi zamanı vətəndaşlar şəxsiyyət vəsiqəsini təqdim etdikdən sonra təlimatda qeyd edilən 4 standart hərəkəti qısa zamanda icra edərək üz tanıma mərhələsini tamamlayırlar. Bunun ardınca PİN kod təyin edərək SİMA rəqəmsal imzanı əldə edirlər.

Bundan başqa, yenilənən mobil tətbiqdə vətəndaşlara imzaladıqları və onlara göndərilən sənədləri mobil cihazın yaddaş qurğusunda saxlamaq imkanı verilir. Tətbiqin "Əsas səhifə"sində yuxarı hissədə xidmətlər və yeniliklər barədə "Hekayə" formatında məlumatlar təqdim edilib.

Qeyd edək ki, hazırda SİMA yeni nəsil rəqəmsal imza ilə 12-si dövlət qurumu olmaqla 70-dən çox müəssisənin inteqrasiyası davam edir.

# Mağazalarda partlayıcı pirotexniki vasitələr aşkarlandı

***Bərdədə mağazalarda partlayıcı pirotexniki vasitələr aşkarlanıb.***

DİN-in Mətbuat Xidmətinin Bərdə regional qrupundan "Unikal"a verilən məlumata görə, Bərdə Rayon Polis Şöbəsinin əməkdaşlarının keçirdikləri tədbirlərlə rayon ərazisində yerləşən mağazalarda partlayıcı pirotexniki vasitələrin satışını təşkil edən şəxslər müəyyən edilib.

Satışı təşkil edən şəxslər məsuliyyətə cəlb ediliblər.

Bu istiqamətdə tədbirlər davam etdirilir.

# "Qoç ət"də dəhşət

## Qadın ətqarışdırıcı aparatda qalıb öldü

***"Qoç ət" KFT MMC-də dəhşətli hadisə baş verib.***

"Unikal" "Qafqazinfo"ya istinadən xəbər verir ki, dünən günorta saatlarında şirkətə məxsus olan Qaradağ rayonu Lökbatan-Puta yolunda yerləşən kəsim sexində xadimə elektrik ətqarışdırıcı qurğunun içində qalıb.

Belə ki, kəsim sexində çalışan Pirməmmədova Rəqsanə Azad qızı qurğunu təmizləyərkən ətqarışdırıcı qurğu qəfil hərəkətə başlayıb. Nəticədə qadın qurğunun hissələrinin arasında qalıb və aldığı xəsarətlərdən hadisə yerində ölüb.

Faktla bağlı Qaradağ Rayon Prokurorluğunda cinayət işi başlanılıb, araşdırma aparılır.

# İlk dəfə çəltikçilikdə sertifikatlı toxum əldə olundu

***Kənd Təsərrüfatı Nazirliyinin Əkinçilik Elmi-Tədqiqat İnstitutunda (ƏETİ) kənd təsərrüfatının ənənəvi sahələrindən olan çəltikçiliyin inkişafı, çəltik istehsalının artırılması və əhalinin düyüyə olan tələbatının ödənilməsi istiqamətində əhəmiyyətli tədbirlər görülür.***



"Unikal" xəbər verir ki, çəltiyin yüksək məhsuldar, xəstəlik və zərərvericilərə davamlı, yerli və rayonlaşdırılmış sortlarının toxumçuluğunun yaradılması məqsədilə bu sahədə toxumla təminat istiqamətində həyata keçirilən tədbirlər müvəffəqiyyətlə nəticələnib.

Son 50 ildə ilk dəfə olaraq Azərbaycanda sertifikatlaşdırılmış çəltik toxumu istehsal edilib. ƏETİ tərəfindən Lənkəran rayonunda istehsal olunan "Avanqard" çəltik sortunun ölkə ərazisində kənd təsərrüfatı məhsulları istehsalı üçün istifadəsinə icazə verilib və mühafizə olunan seleksiya nailiyyətlərinin dövlət reyestrində qeydiyyatdan keçirilib.

"Avanqard" çəltik sortunun 500 kq "Orijinal" və 1200 kq "Super elit" toxumu Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyi tərəfindən sertifikatlaşdırılıb. Bundan başqa, 3 illik fəaliyyətin nəticəsi olaraq cari ildə çəltiyin 2 yerli "Zəfər" və "Bəstə" sortları dövlət sınağının keçirilməsi məqsədilə Aqrar Xidmətlər Agentliyinə təqdim edilib.

Çəltikçiliyin inkişaf etdirilməsi üçün yerli imkanlardan səmərəli istifadə edilməsi, yeni çəltik sortlarının genefondunun yaradılması, yerli şəraitə uyğun formalarının seçilməsi və onların toxumçuluq sisteminin yaradılması istiqamətində tədqiqat işlərinin əhəmiyyəti böyükdür.

Sortların yaradılması, toxum istehsalı və kadr potensialının artırılması istiqamətində Pakistan, Türkiyə, İran və Malaziyanın müvafiq elmi-tədqiqat müəssisələri ilə əməkdaşlıq əsasında fəaliyyətlər davam etdirilir.

# Rusiya və Türkiyə qaz qovşağının birgə tikintisinə başladı



***Moskva və Ankara artıq Türkiyədə qaz qovşağının yaradılması layihəsinin həyata keçirilməsi üzərində işə başlayıblar.***

"Unikal" xəbər verir ki, bunu "Qazprom"un baş direktoru Aleksey Miller bildirib. Onun sözlərinə görə, hazırda Rusiyanın "Türk axını" və "Mavi axın" dəniz qaz kəmərləri etibarlı işləyir.

"İndi Türkiyə və biz bu ölkədə qaz qovşağı layihəsi üzərində işə başlamışıq. Bu qərar iki dövlətin başçıları səviyyəsində qəbul edilib və biz artıq onun praktiki icrasına başlamışıq", - Miller deyib.

***Ağarza Elçinoğlu***

# Rusiyada eks-deputata cinayət işi açıldı



***Rusiya Dövlət Dumasının keçmiş deputatı İlya Ponomarevə Rusiya Silahlı Qüvvələrinin istifadəsinə dair saxta məlumatların yayılması maddəsi ilə cinayət işi açıb.***

"Unikal" TASS-a istinadən xəbər verir ki, bu barədə Rusiya İstintaq Komitəsi məlumat yayıb. "Eks-deputata Rusiya Federasiyası Cinayət Məcəlləsinin 207.3 maddəsi ilə cinayət işi açılıb", - məlumatda qeyd olunub.

Həmçinin, bildirilir ki, bu işdə "Rusiyanın yeddi şəhərində bir sıra Telegram kanallarının administratorları və Moskvanın keçmiş bələdiyyə deputatları üzərində axtarışlar aparılır".

Bununla yanaşı, oktyabrın 21-də Rusiya Ədliyyə Nazirliyi Ponomaryevi xarici agentlərin reyestrinə daxil edib.

***Gülayə***

# ""Artsax"ın sülh yolu ilə verilməsi yönündə gedirik" - Erməni deputat



***"Ermənistanın və Artsaxın sülh yolu ilə təslim olması yönündə gedirik".***

"Unikal" xəbər verir ki, bunu Ermənistan Parlamentinin deputatı Tiqran Abramyan "Facebook" hesabında yazıb. O, Ermənistanın müttəfiqlərini onlara təzyiqlər göstərməkdə ittiham edib: "Onlar hakimiyyəti ancaq yemək, içmək, ləzzət almaq üçün ələ keçiriblər və ölkənin təhlükəsizliyi, ərazi bütövlüyü, suverenliyi beynəlxalq ictimaiyyət və cəmiyyət tərəfindən təmin edilməlidir".

Abramyan ölkənin son 4,5 ildə fəlakətə sürükləndiyini də qeyd edib.

***Ağarza***

# "İlin son asteroidi Yerə yaxınlaşır" - NASA

***Dekabrın 30-da diametri təxminən 16 metr olan asteroid Yer kürəsinin yanından keçəcək.***

"Unikal" xəbər verir ki, bu barədə NASA-nın Reaktiv Hərəkət Laboratoriyası (JPL) məlumat yayıb.

2022 YG5 asteroidi dekabrın 30-da 3.120.000 km məsafədə Yerə ən çox yaxınlaşacaq. Bildirilir ki, asteroidin sürəti saatda 51 286 km-dir.

# Ermənistanda deputatın oğlu saxlanıldı

***Ermınistanda "Mülki müqavilə" fraksiyasının deputatı Qurgen Arsenyanın oğlu G. Arsenyan saxlanılıb.***

"Unikal" xəbər verir ki, 27 yaşlı Arsenyan soyuq silah gəzdirməkdə əsaslı şübhə ilə tutularaq Mərkəzi Polis İdarəsinə təhvil verilib.

Həmçinin, axtarış zamanı polislər deputatın oğlunun evindən iki balta və 16,5 sm uzunluqda bıçaq tapıblar.

Onun barəsində cinayət işi açılıb.

***Gülayə***

# "Zelenskinin təklif etdiyi "sülh formulu"nu qəbul etmirik" - Lavrov

***"Rusiya Ukrayna prezidenti Volodimir Zelenskinin təklif etdiyi "sülh formulu" əsasında heç kimlə danışmayacaq, burada Kiyevin özünün hazır olmadığı açıq-aydın görünür".***



"Unikal" "RİA Novosti"yə istinadən xəbər verir ki, bunu Rusiyanın xarici işlər naziri Sergey Lavrov deyib.

Onun sözlərinə görə, Ukrayna tərəfi dialoqa hazır deyil, çünki Zelenski müxtəlif ideyalar və "sülh düsturları" irəli sürür, bununla da Qərb dövlətlərinin köməyi ilə Rusiya qoşunlarının ərazilərdən çıxarılmasına nail olmaq illüziyasını "bəsləyir".

"Əlbəttə, belə şərtlər altında heç kimlə danışmayacağıq", - Lavrov bildirib.

Həmçinin, Lavrov bildirib ki, Rusiya-Ukrayna danışıqlarının bir neçə raundu göstərdi ki, qarşılıqlı məqbul razılaşmalar tapmaq mümkündür, lakin dialoq prosesi "Zelenskinin qərarların qəbulunda tam müstəqil olmadığını" nümayiş etdirdi.

Bundan əvvəl Zelenski 2023-cü ilin Rusiya ilə münaqişədə həlledici olacağını bildirib.

***Gülayə Mecid***

# Rusiya bir gündə Ukraynaya 120 raket atıb

***"Dekabrın 29-da Rusiya Ukraynaya qarşı növbəti kütləvi raket hücumu həyata keçirib, ölkəmizə 120 raket atıb".***



"Unikal" xəbər verir ki, bu barədə Ukrayna prezidentinin aparatının rəhbərinin müşaviri Mixaylo Podolyak sosial şəbəkə hesabında yazıb.

O, həmçinin sülh danışıqları və "Rusiya Federasiyası üçün təhlükəsizlik təminatları" təkliflərini məsxərəyə qoyub.

"Hər şeydən əvvəl, kritik infrastrukturu məhv etmək və dinc sakinləri kütləvi şəkildə öldürmək üçün "şər rus sülhü" tərəfindən buraxılan 120-dən çox raket... "Sülhməramlılardan" "sülh yolu ilə nizamlanma", "təhlükəsizlik təminatları" ilə bağlı növbəti təklifləri gözləyirik" - Podolyak yazıb.

***Seymur Əli***

# "Müharibə hər bir kəsə aiddir" - Şoyqu



***"Ukraynada xüsusi əməliyyat və səfərbərlik hər bir regiona aiddir".***

"Unikal" xəbər verir ki, bu barədə Rusiya Federasiyasının Müdafiə naziri Sergey Şoyqu parlamentin Xüsusi Əməliyyatlar üzrə Əlaqələndirmə Qrupunun ilk iclasında bildirib.

"Xüsusi əməliyyat və səfərbərlik hər bir rusa aiddir. Burada senatorların və deputatların köməyinə və dəstəyinə ehtiyacımız var", - Şoyqu bildirib.

# Saakaşvili məhkəmə iclasında iştirakından imtina etdi

***Gürcüstanın eks-prezidenti Mixail Saakaşvili səhhətinə görə Tbilisi şəhər məhkəməsinin iclasında iştirakdan imtina edib.***

"Unikal" "Sputnik Gürcüstan"a istinadən xəbər verir ki, hakim Giorgi Arevadzenin sözlərinə görə, Saakaşvili hətta xəstəxanadan uzaqdan belə görüşdə iştirakdan imtina edib. O, prosesi onsuz davam etdirməyə razılaşıb.

Saakaşvilinin cəzasının ləğvi və ya təxirə salınması ilə bağlı bugünkü iclasda müdafiə tərəfi adından amerikalı toksikoloq Devid Smit çıxış edib. Keçmiş prezidentin bədənində aşkar olunan toksinlər və metalların onun həyatı üçün təhlükəli olduğu barədə tibbi rəyi məhz o verib.

Bundan əvvəl Gürcüstan prezidenti Salome Zurabişvili Saakaşvilinin əfv olunması ilə bağlı suala cavab verməkdən yayınıb. Görüş ərəfəsində



Gürcüstan sakinləri prezidentdən Saakaşvilini azad etməməyi tələb ediblər.

***Ağarza Elçinoğlu***

# Vətən şəhidi Coşqun Zülfizadənin şərəfinə şahmat yarışı



***Vətən şəhidi Coşqun Ədail oğlu Zülfizadə 1998-ci il dekabr ayının 27-də dağlar diyarı Lerik rayonunun Nuravud kəndində dünyaya göz açıb.***

4 ildən sonra ailələri Bakı şəhəri Xəzər rayonunun Binə qəsəbəsinə köçüb. 2017-ci ildə həqiqi hərbi xidmətə çağırılıb. Nümunəvi, intizamlı əsgər kimi komandirlərin, əsgər yoldaşlarının hörmətini qazanıb. İkinci Qarabağ müharibəsinə Coşqun könüllü olaraq qoşulub. Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı əsasında Xocavənd rayonunun işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət göstərdiyi üçün Coşqun Zülfizadə "Xocavəndin azad olunmasına görə" medalına layiq görülüb.

Coşqunun Vətən müharibəsində göstərdiyi igidlik komandirlərinin diqqətindən yayınmayıb. Müharibədən sonra o, hərbi hissədə qalıb xidmətini davam edib. Sentyabrın 12-si gecə və 13-ü səhər saatlarında erməni silahlı qüvvələri tərəfindən Azərbaycan-Ermənistan dövlət sərhədində baş vermiş genişmiqyaslı təxribatın qarşısını alarkən müddətdən artıq hərbi qulluqçu Coşqun Zülfizadə qəhrəmancasına şəhid olub. Ölümündən sonra ilə 3-cü dərəcəli "Vətənə xidmət görə" ordenli ilə təltif edilib.

Lerik rayon Heydər Əliyev Mərkəzində rayon İcra hakimiyyətinin dəstəyi, Lerik rayon Gənclər və İdman İdarəsi, Uşaq Gənclər İdman və Şahmat Məktəbinin birgə təşkilatçılığı ilə elin qəhrəman oğlu Coşqun Zülfizadənin xatirəsinə həsr olunmuş məktəb komandaları arasında şahmat yarışı keçirildi. Öncə Dövlət Himini oxundu, Vətənin yaşaması naminə canından keçən qəhrəmanların əziz xatirəsi bir dəqiqəlik sükutla anıldı. Rayon Gənclər və İdman İdarəsinin rəisi N. İsaqov Coşqun Zülfizadənin şərəfli həyat yolunda, müqəddəsliyinə tapındığı doğma Azərbaycanına olan sevgisindən danışdı, yarışa qatılan məktəblilərə qələbə arzuladı.

Yarışın yekununda qalib komandalar elan olundu. 1-ci yeri şəhər İnteqrasiya təlimli İnternat tipli gimnaziyanın komandası, 2-ci yeri 3 saylı məktəb komandası , 3-cü yeri isə 2 saylı məktəbin komandası tutdular. Qaliblərə kubok diplom və medallar təqdim edildi.

# Pele vəfat etdi

***Əfsanəvi braziliyalı futbolçu Pele 82 yaşında vəfat edib.***



Qol.az xəbər verir ki, bu barədə " Associated Press" məlumat yayıb. O, uzun müddət xərçənglə mübarizə aparıb. "Futbol kralı" futbolçu kimi yeganə üçqat dünya çempionu olub.

Qeyd edək ki, xəstəlik 2021-ci ilin payızında Peledə aşkarlanıb. Bundan sonra 82 yaşlı braziliyalı kimyaterapiyadan keçib, lakin sonradan orqanizm buna cavab verməyi dayandırıb.

# Şahin Diniyev: "Hər şey yaxşı alınacaq"

***"Yeni işə başlayırıqsa, uğurlu olmaq istəyirik. Doğrudur, komanda hazırda son pillədədir. Amma işləməyə və işimizin öhdəsindən gəlməyə çalışacağıq".***




Bunu apasport.az saytına "Səbail"in yeni baş məşqçisi Şahin Diniyev deyib.

Növbəti mövsümün sonunadək müqavilə imzalayan mütəxəssis paytaxt klubundakı məqsədlərindən söz açıb: "Əlimizdən gələni edəcəyik ki, hər şey yaxşı olsun. Görüləsi işimiz az deyil. Çalışacağıq ki, komandanı turnir cədvəlinin son pilləsindən çıxaraq, irəliləməsinə nail olaq. Digər məsələlərə isə yaxın günlərdə aydınlıq gələcək. Heyət və köməkçi-məşqçi məsələlərini nəzərdə tuturam. Hər halda, planlarımız var. İşimizin uğurlu alınması və etimadı doğrultmaq üçün ən yaxşısını edəcəyik. Qış fasiləsində vaxtımız olacaq. Toplanış zamanı da fasilədə komandaya oyun fəlsəfəmi aşılamağa çalışacam. Ümidvaram ki, hər şey yaxşı alınacaq".

# Qurban Qurbanovun oğlu PSJ-nin oyununda




***Azərbaycan Premyer Liqasında yaranan qış fasiləsindən istifadə edən "Qarabağ"ın futbolçusu Musa Qurbanlı Parisə səfər edib.***

O, Liqa-1-in PSJ - "Strasburq" görüşünü (2:1) canlı izləyib. M.Qurbanlı oyuna Argentina millisi və PSJ-nin hücumçusu Lionel Messinin formasında gedib.

O, bu barədə şəkli şəxsi İnstaqram hesabında paylaşıb.

# "Siti"dən növbəti qələbə



***"Mançester Siti" İngiltərə Premyer Liqasının XVII turunun matçında səfərdə "Lids Yunayted"ə 3:1 hesab ilə qalib gəlib.***

"Unikal" xəbər verir ki, oyun "Elland Road" stadionunda keçirilib.

Qarşılaşmada hesabı ilk hissənin sonunda qonaqların yarımmüdafiəçisi Rodri açıb. Bu, ilk hissədə vurulan yeganə qol olub.

Fasilədən sonra "Mançester Siti"nin hücumçusu Erlinq Holann dubl edib. 71-ci dəqiqədə "Lids"in müdafiəçisi Paskal Streyk qonaqları oyuna meydanın mərkəzindən başlamağa məcbur edib.

"Mançester Siti" Premyer Liqada 15 oyundan sonra 35 xalla turnir cədvəlinin ikinci pilləsində qərarlaşıb. "Lids Yunayted" (15 xal) 15-ci yerdədir.

# Ronaldodan 6 min avroluq iş elanı

***Məşhur futbolçu Kriştiano Ronaldo Portuqaliyada yeni villa tikdirib.***



"Unikal" "Sky Sports Italia"ya istinadən xəbər verir ki, ulduz oyunçunun yeni evi Lissabonun Cascais səmtindəki Quinta da Marinha rayonundadır və 3000 kvadratmetr ərazini əhatə edir.

Bu üç mərtəbəli villada işləmək üçün işçi axtaran Ronaldo, aşpaz da daxil olmaqla 4 nəfərlik komandanı işə götürəcək. İş elanı yayımlayan Ronaldo villada qalacaq işçilərə aylıq 6 min avro maaş verəcək.

30 milyon avroluq villanın 455 kvadratmetr bağçası və açıq sahəsi, tennis kortu, kinoteatrları, açıq və qapalı şüşəli hovuzu, idman kompleksi, smart istilik sistemi, 20 maşınlıq meqa qarajı var.

Qeyd edək ki, Portuqaliyada minimum əmək haqqı 822 avrodur.

***Seymur Əli***

# Nəriman Abbasovun növbəti döyüşünün vaxtı açıqlandı



***Azərbaycanın MMA döyüşçüsü Nəriman Abbasovun növbəti döyüşünün vaxtı bilinib.***

Qol.az xəbər verir ki, 28 yaşlı idmançı növbəti döyüşünü martın 18-də keçirəcək. Qazaxıstanın Almatı şəhərində keçiriləcək döyüş gecənin əsas qarşılaşması olacaq. Onun rəqibi yerli idmançı Fanil Rafikov olacaq.

Döyüş Nazia Fighting Championship təşkilatı çərçivəsində keçiriləcək.

Qeyd edək ki, Fanil Rafikov 21 döyüşdə qalib gəlib, 6 dəfə uduzub. Nəriman Abbasov isə 28 döyüşdə qələbə qazanıb, 4 dəfə məğlub olub.